www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 12 aprel 2017-ci il Cümə axşamı № 78 (6967) Qiymәti 60 qəpik

**Xəbər**

**"Dolların bahalaşmasından söhbət gedə bilməz!"- Elman Rüstəmov**

yazısı səh.4-də

**Gündəm**

**Seçki bitdi - Azərbaycanda nələr dəyişəcək...**



**Fəzail Ağamalı:** "Başlanmış olan və davam edən proses özünün yeni mərhələsinə qədəm qoyacaq"

yazısı səh.5-də

**Azərbaycan 20 il sonra yoluna neftsiz davam edəcək - iqtisadiyyatı nə gözləyir...**

yazısı səh.3-də

**Türkiyə ilə Avropa gərginliyi və erməni kəmfürsətliyi...**

yazısı səh.6-da

**Medvedev üçün müəmmalı dönəm**

yazısı səh.10-da

**DİN jurnalistə qarşı zorakılığı araşdırır**

yazısı səh.2-də

**Sülh nağılı, Kəlbəcərdəki hərbi təlimlər, Rusiyaya dikilən nəzərlər**

yazısı səh.11-də

**Şərab istehsalı niyə artmır - çıxış yolu...**

yazısı səh.12-də

**Bağlanan bankların satılan əmlakının pulu hara yönəldilir...**

yazısı səh.13-də

**Döş xərçənginin qarşısını almağın sadə yolu**

yazısı səh.12-də

**"ABŞ-la Rusiya küçə qoçuları kimi dalaşır" - Binəli Yıldırım**

yazısı səh.2-də

**Deputatların qıcıqlandırıcı açıqlamalarının səbəbi - savadsızlıq, yoxsa...**

yazısı səh.13-də

**Səmavi dinlərdə boşanma və zina**

yazısı səh.15-də

## Azərbaycan yeni - 7 illik dönəmə başladı

# XALQ YENİDƏN İLHAM ƏLİYEVİ PREZİDENT SEÇDİ

YAP-ın namizədi 86,09 faiz səslə qalib gəldi; beynəlxalq təşkilatlar seçki prosesindən məmnun qaldılar; səsvermə günü heç bir insident qeydə alınmadı; müxalifət isə...




yazısı səh. 8 və 9-da

## Böyük güclərin "yorğan" davası - Bakı və Qarabağ üçün unikal şans

ABŞ və Rusiyanın Suriyaya görə toqquşması Güney Qafqaza, Qarabağ məsələsinə də sirayət edəcək; Kreml-Qərb çəkişməsi Ermənistanla blits-savaşı tezləşdirə bilər - yeni ssenari və xəbərdarlıqlar...

yazısı səh.4-də



*Natiq Cəfərli:* **"Ola bilər ki, hakimiyyət bizdən yeni müxalifət yaratmaq istəsin"**

yazısı səh.7-də



*Politoloq Mübariz Əhmədoğlu: :* **"Qarşıdakı illər ərzində Azərbaycana ciddi təzyiqlər olacaq"**

yazısı səh.6-da



*Ramiz Mehdiyev:* **"Qarayaxmalar həmin insanların mədəniyyətinin yerində olmamasından xəbər verir"**

yazısı səh.2-də

YENİ MÜSAVAT
N 78 (6967) 12 aprel 2018



# "Azərbaycan xalqı sabitliyə, təhlükəsizliyə, inkişafa səs verib" - Prezident İlham Əliyev

**Azərbaycan prezidenti İlham Əliyev xalqa müraciət edib.**

APA-nın məlumatına görə, dövlət başçısı prezident seçkilərində Azərbaycan xalqının yenidən ona böyük etimad göstərdiyini, sabitliyə, təhlükəsizliyə, inkişafa səs verdiyini bildirib.

Bu etimada görə xalqa təşəkkür edən prezident İlham Əliyev bildirib ki, xalq-iqtidar birliyi Azərbaycanda inkişafın əsasında durur: "Ordumuz aprel döyüşlərində torpaqlarımızın bir hissəsini işğaldan azad edib. Həmin torpaqlarda bu gün Azərbaycan bayrağı dalğalanır. O torpaqlarda prezident seçkiləri keçirilir. Gün gələcək, işğal altındakı torpaqlarımızda bayraqlarımız dalğalanacaq".

Dövlət başçısı qeyd edib ki, bu gün Azərbaycan dünyanın ən rəqabətqabiliyyətli ölkələrindən biridir: "Siyasətimizin mərkəzində həmişə Azərbaycan xalqının rifahı durur. Azərbaycan bu illər ərzində kosmik dövlətə çevrilib. Bütün istiqamətlər üzrə nəticələr göz qabağındadır. Azərbaycan nəhəng enerji və nəqliyyat layihələrini icra edir, Avrasiyanın nəqliyyat və energetika xəritələri yenidən tərtib olunur. Heç vaxt Azərbaycan dövləti bu qədər güclü olmayıb. Biz güclü Azərbaycan qurmuşuq və daha güclü Azərbaycan quracağıq. Yeni qələbələrə doğru!".

# DİN jurnalistə qarşı zorakılığı araşdırır




**Səhiyyə nazirinin müavini Abbas Vəlibəyovun dəfn mərasimində jurnalist Famil Fərhadoğluna (İbrahimov) qarşı zorakılıq hadisəsi baş verib. Belə ki, Yasamal qəbiristanlığında mərhumun dəfn mərasimini lentə alan Famil Fərhadoğlu hücuma məruz qalıb.**

Unikal.org saytının əməkdaşı üz və qol nahiyəsindən xəsarət alıb. Həmçinin mobil telefonu əlindən alınaraq sındırılıb. Hadisə ilə bağlı KİV-lərdə xəbər yayımlandıqdan sonra Səhiyyə Nazirliyi dərhal açıqlama verib. Nazirlik baş verənləri üzərindən ataraq, hadisənin mərhum nazir müavininin qohumları tərəfindən törədildiyini bildirib.

"Yeni Müsavat" əməkdaşı "Unikal.org" saytının əməkdaşı Famil Fərhadoğlunun peşə fəaliyyətini yerinə yetirərkən təhqir və təzyiqə məruz qalması barədə məlumatlara aydınlıq gətirilməsi üçün DİN-ə sorğu ilə müraciət edib.

Məsələ ilə bağlı Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətindən musavat.com-un sorğusuna cavab olaraq bunlar bildirilib: "Aprelin 9-da vətəndaş Famil İbrahimov nazirliyin "102 xidməti"nə zəng edərək Yasamal rayonu ərazisindəki qəbiristanlıqda keçirilən dəfn mərasimində telefonla çəkiliş apararkən orada iştirak edən iki nəfərin təzyiqinə məruz qalması və sonda ona məxsus mobil telefonu zorla əlindən almalarını bildirib. Məlumat dərhal ərazi aidiyyəti üzrə Yasamal RPİ-nin 28-ci Polis Bölməsinə ötürülüb. Famil İbrahimov bölməyə dəvət olunaraq ərizəsi və izahatı alınıb. Hazırda onun müraciəti ilə əlaqədar müvafiq araşdırmalar aparılır".

**❑ E.MƏMMƏDƏLİYEV,**
**Musavat.com**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01**

# "Qarayaxmalar həmin insanların mədəniyyətinin yerində olmamasından xəbər verir"

Ramiz Mehdiyev xaricdən Azərbaycana qarşı kampaniya aparılmasına münasibət bildirdi



**"Qarayaxma kampaniyaları pis addımdır, buna münasibətim pisdir". "Report"un məlumatına görə, bunu jurnalistlərə açıqlamasında Prezident seçkiləri ilə bağlı sosial şəbəkələrdə yer alan bəzi iddialara münasibət bildirən Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev deyib:**

"Normal adam bu yola düşməməlidir. Heç bir millət nümayəndələri bu yola düşmür. Təəssüf ki, bəzi insanlar, xaricə gedənlər orada Azərbaycanı pisləyir. Bu, bizim xalqa xas deyil. Bu, həmin insanların mədəniyyətinin yerində olmamasından xəbər verir".

"Azərbaycan son 15 ildə sürətlə inkişaf edib, böyük nailiyyətlər əldə edib" -deyə Ramiz Mehdiyev bildirib.

R. Mehdiyev deyib ki, Azərbaycan beynəlxalq səviyyədə tanınıb: "Azərbaycanda iqtisadiyyat və sosial sahədə bir çox problemlər həllini tapıb. Ona görə də seçicilərin seçkilərdə yüksək səviyyədə iştirakı təbiidir".

## "ABŞ-la Rusiya küçə qoçuları kimi dalaşır" - Binəli Yıldırım

**"ABŞ və Rusiya bir-biri ilə küçə qoçuları kimi dalaşırlar". "Report" "Ahaber"ə istinadən xəbər verir ki, bunu Türkiyənin baş naziri Binəli Yıldırım 21-ci Avrasiya İqtisadi Forumunda ABŞ-la Rusiya arasında mövcud gərginliyə münasibət bildirərkən deyib.**

O qeyd edib ki, ABŞ-la Rusiya "Twitter" vasitəsilə bir-birilərini hədələyirlər: "Bu gün Balkanlarda sülhün, təhlükəsizliyin, sabitliyin davam edə bilməsi üçün hamımızın üzərinə böyük məsuliyyət düşür. Çünki Orta Şərqdə yetərincə problem var. Başqa bölgələrə bu problemlərin yayılmasının qarşısını mütləq almalıyıq. Türkiyə Balkanlarda bu anlayışla hərəkət edir. Türkiyənin heç vaxt imperialist hədəfi olmayıb. Bundan sonra da olmayacaq. Türkiyə getdiyi yerə yaxşılıq, dostluq, sülh üçün gedir".



## "Güman edirəm ki, sağlam düşüncə qalib gələcək" - Putin

**"Dünyadakı durum getdikcə daha da xaotik olur. Lakin güman edirəm ki, sağlam düşüncə qalib gələcək, bütün dünya sistemi stabil və proqnozlaşdırılan olacaq".**

APA-nın "RİA Novosti"yə istinadən verdiyi məlumata görə, bunu Rusiya prezidenti Vladimir Putin bəyan edib.

O qeyd edib ki, Rusiya bundan sonra da ardıcıl olaraq qlobal və regional təhlükəsizliyin möhkəmləndirilməsinə çıxış edəcək. Putinin sözlərinə görə, Moskva digər ölkələrin konstruktiv təşəbbüslərini dəstəkləməyə hazırdır.

## Əlcəzairdə hərbi təyyarə qəzaya uğradı - 257 nəfər ölü

**Əlcəzairdə hərbi təyyarə qəzaya uğrayıb.**

Qəzanın baş verməsinə texniki nasazlığın səbəb olduğu ehtimal olunur.

APA-nın xəbərinə görə, Əlcəzair Dövlət Televiziyası qəza nəticəsində 257 hərbçinin öldüyü barədə məlumat yayıb.

Əlcəzair Müdafiə Nazirliyi qəza xəbərini təsdiqləsə də, ölənlərin sayı ilə bağlı hər hansı açıqlama verməyib.



## "Brent" markalı neftin qiyməti 72 dolları ötüb

**Son 4 ildə ilk dəfə olaraq "Brent" markalı neftin bir barelinin qiyməti 72 dolları ötüb. "Report" xəbər verir ki, "Brent"in iyun fyuçerslərinin dəyəri 72,24 dollara çatıb. Qeyd edək ki, bu növ neftin qiyməti sonuncu dəfə 2014-cü ildə 72 dollardan yuxarı olub.**



## Yevlaxda itkin düşən şəxsin meyiti Göyçayda kanaldan tapıldı

**Yuxarı Şirvan kanalının Göyçay rayonunun Cəyirli kəndindən keçən hissəsində naməlum kişi meyiti aşkarlanıb. APA-nın yerli bürosunun xəbərinə görə, kənd sakinləri kanalda meyit görərək rayon polis şöbəsinə məlumat veriblər.**

Orta yaşlarda olan kişi meyiti sudan çıxarılıb. Hüquq-mühafizə orqanlarının əməkdaşları meyiti sudan çıxararaq müayinə üçün Respublika Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Göyçay Rayon Şöbəsinə təhvil veriblər. Araşdırma zamanı məlum olub ki, ölən şəxs Laçın rayon sakini, Yevlaxın Xaldan qəsəbəsində məskunlaşan 1981-ci il təvəllüdlü Heydərov Ağa Yavər oğludur. İki uşaq atası olan Ağa Heydərov 25 gün əvvəl yaşadığı evdən çıxaraq geri qayıtmayıb. Onun ailə üzvlərinin müraciəti əsasında Yevlax Rayon Polis Şöbəsi tərəfindən itkin düşən şəxs kimi qeydiyyata alınan A.Heydərovun axtarışına başlanılıb.

Məlum olub ki, Ağa Heydərov Xaldan qəsəbəsindən keçən Yuxarı Şirvan kanalına özünü ataraq intihar edib. Onun özünə qəsd etməsinin səbəbi, hələ ki, məlum deyil.

**Faktla bağlı araşdırma aparılır.**

## Bakı-Xarkov sərnişin qatarının marşrutu Kiyev stansiyasına kimi uzadılır

**21 aprel 2018-ci ildən etibarən 369-370 nömrəli Bakı-Xarkov sərnişin qatarının marşrutu Kiyev stansiyasına kimi uzadılacaq.**

"Azərbaycan Dəmir Yolları" QSC-nin İctimaiyyətlə Əlaqələr Şöbəsinin rəisi Sevinc Qədirovanın "APA-Economics"ə verdiyi məlumata görə, 21.04.2018-ci ildən etibarən yeni 369-370 nömrəli Bakı-Kiyev qatarı təyin edilir. Qatar Xarkov, Poltava, Mirqorod və Lubnı stansiyalarından keçəcək.

Qatar Bakıdan həftədə bir dəfə - həftənin IV günləri saat 01-35-də yola düşəcək, Kiyev stansiyasına 23.04.2018-ci ildən etibarən həftənin I günləri saat 11:46-da çatacaq və həmin gün saat 14:37-də əks istiqamətə yola düşəcək.

Qeyd edək ki, Bakı-Kiyev qatarı Bakıya 26.04.2018-ci ildən etibarən həftənin IV günləri saat 04:10-da çatacaq.

## Cəlilabadda ana doğuşdan sonra ölüb

**Cəlilabad Rayon Mərkəzi Xəstəxanasının doğum şöbəsində qadın doğuşdan sonra ölüb.**

APA-nın cənub bürosunun məlumatına görə, rayonun Privolnoye kənd sakini, 1983-cü il təvəllüdlü Vəfa Ramazan qızı Yusubova qız övladını dünyaya gətirdikdən sonra vəfat edib.

V. Yusubovanın meyiti müayinə üçün Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Cəlilabad Rayon Şöbəsinə təhvil verilib.

**Faktla bağlı araşdırma aparılır.**

**Artıq bir neçə ildir ki, ölkə iqtisadiyyatını neftdən asılılıqdan xilas etmək istiqamətində müzakirələr gedir. Hökumətin iqtisadi sahədə qəbul etdiyi son qərarlar, yol xəritələri və proqramlar da məhz buna yönəlib. Lakin hələ də ölkə ixracatının 85-90 faizini enerji məhsulları təşkil edir və iqtisadiyyatda aparıcı rol neft gəlirlərinə aiddir. Maliyyə naziri Samir Şərifov açıqlamasında bildirib ki, iqtisadi siyasəti neftin qiymətindən asılı saxlamamağa çalışırlar: “Biz çalışırıq ki, öz iqtisadi siyasətimizi neftin qiyməti ilə o qədər də sıx bağlamayaq. Cari ilin büdcəsində neftin qiyməti hazırda mövcud olan qiymətlərdən xeyli aşağı götürülüb. Hesab edirəm ki, biz, yəqin ki, bu ehtiyatlı siyasəti bundan sonra da davam etdirəcəyik”.**

# Azərbaycan 20 il sonra yoluna neftsiz davam edəcək - iqtisadiyyatı nə gözləyir...

## Elnur Soltanov: “Neft gəlirləri o qədər çoxdur ki, onu hansısa başqa bir sahənin inkişafı ilə kompensasiya etmək çox çətindir”



Qeyd edək ki, ölkəyə qeyri-neft sektorundan daxil olan gəlirlərin artırılması istiqamətində tədricən müəyyən işlər görülür. Bəs görəsən, Azərbaycan neçə il sonra neft gəlirlərindən tamamilə məhrum olacaq? Hasilatın azalması prosesinin davam etdiyi bir şəraitdə ölkəyə gələn neft pulları neçə il sonra kəsiləcək və bu zaman onu əvəz edəcək hansı sahələr mövcuddur?

**“Yeni Müsavat”ın suallarını cavablandıran ADA Universitetinin Xəzər Enerji və Ətraf Mühit Mərkəzinin direktoru Elnur Soltanov** bildirib ki, neftdən və qazdan gələn gəlirlərin artıb-azalması yalnız bu strateji məhsulların ixrac həcminin artıb-azalması ilə bağlı deyil, həm də onların dünya bazarındakı qiymətinə bağlıdır: “Hər iki hadisənin baş verməsi mümkündür, yəni həm qiymətlərin enməsi, həm də hasilatın azalması halları yaşana bilər. Bu proseslərin toplam cəmi Azərbaycanın gəlirlərinə təsir edəcək. Məsələn, əgər 50 ildən sonra neftin dünya bazarındakı qiyməti bir barel üçün 5 dollara enibsə, əlinizdə nə qədər neft olursa-olsun, gəlirlər az olacaq.

Azərbaycanda bundan sonra böyük neft yataqlarının kəşfi gözlənilmir. Var olan neft ehtiyatlarımız böyük ehtimalla 20-30 ildən sonra daha çox daxili tələbatı ödəməyə hesablanacaq. Ancaq bu proses çox asta sürətlə gedəcək. Ölkənin neft ehtiyatlarının həcmində ciddi bir artım gözlənilməsə də, bizim çoxlu kiçik yataqlarımız var. Onlardan effektiv şəkildə istifadə etsək, indiki neft istehsalı səviyyəsini asanlıqla 15-20 il bu səviyyədə saxlaya bilərik. Bu, yeni kiçik quyuların qazılması hesabına baş verə bilər.

Qaz hasilatında isə məsələ bir qədər fərqlidir. Biz yeni qaz tapıntıları gözləntisindəyik, qazın ixrac miqdarı artacaq və bundan gələn gəlirlərin də artması gözlənilir. Qaz ixracının yüksəlməsi səbəbindən artan gəlirlər, neft hasilatının azalması səbəbindən ölkə gəlirlərində yaşanan əskiklikləri bağlamaq üçün kifayət deyil. Amma yenə də müəyyən qədər kompensasiya edəcək".

Ekspertin sözlərinə görə, əgər hazırkı neft qiymətləri sabit qalarsa, biz 20-30 il ərzində gəlirlərdə çox ciddi bir enmə müşahidə etməyəcəyik: “Gəlir səviyyəmiz indiki ilə təxminən eyni olacaq. İkinci faktor budur ki, neft və qaz qiymətlərində ciddi enmələr ola bilər. Çünki bərpa olunan enerji sahəsində inqilablar baş verir. Bu inqilablar artıq bəzi ölkələrdə ümumi enerji ehtiyatlarının 10 faizinin bərpa olunanan enerji hesabına, yeni günəş və külək enerjisi hesabına reallaşmasına gətirib çıxarıb. Bu sahədə çox ciddi inkişaf getməkdədir. Ona görə də bir neçə ildən sonra neftin və qazın qiyməti kifayət qədər aşağı düşə bilər. Belə olduğu təqdirdə isə gəlirlərdə daha sürətli azalma yaşana bilər. 2014-cü ildə də gördük ki, bunu 20 il sonraya gözləmək lazım deyil, bu cür hadisələr daha tez də baş verə bilər. 1 il sonra belə müxtəlif səbəblərdən baş verə bilər. Belə olan halda əlimizdəki neft və qaz rezervlərinin miqdarı əhəmiyyətsizdir. Çünki bir barel neftin və ya bir kubmetr qazın qiyməti aşağı olur və gəlirlərimiz kəskin azalır”.




**Alternativlər nədir?**

Elnur Soltanov bu suala cavab olaraq bildirdi ki, ölkəmizdə hazırda neft gəlirlərini tam şəkildə kompensasiya edəcək bir sahə yoxdur: “Təbiət bizə şans verir ki, kəskin böhran yaşamayaq. Tədrici azalma bizə iqtisadiyyatımızın digər sahələrinin şaxələrini inkişaf etdirmək üçün imkan verir. Ancaq neft gəlirlərini hansısa başqa bir sahənin inkişafı ilə kompensasiya etmək çox çətindir. Çünki neftdən qazanılan külli miqdarda vəsaitin başqa bir sahənin gəlirləri ilə müqayisəsi aparıla bilməz. Bəlkə də ən innovativ sahələrlə müqayisə etmək olar, məsələn, ”Apple" kimi bazara təzə girən və yeni məhsullar yaradan şirkətlərin gəlirləri ilə müqayisə etmək olar. Neft o dərəcədə gəlirli bir sahədir. Ancaq hasilatın uzun müddət ərzində azalması və gəlirlərin sabit qalması Azərbaycana imkan verəcək ki, bu fürsətdən istifadə edib digər sahələri inkişaf etdirsin. Digər sahələrin inkişafı isə artıq başqa bir mövzudur. Bu sahədə Tayland təcrübəsi var, Cənubi Koreya və Sinqapur təcrübəsi var. Əsas məsələ marketinq qaydalarını əsas götürərək bazarda sərbəst rəqabətə imkan yaratmaqdır. İnkişafın tək yolu budur ki, dünya bazarına inteqrasiya edərək rəqabət sistemində bacarıqlı insanların önə çıxmasını təmin etməkdir. Burada önəmli olan yaxın insanların, qohumların deyil, qabiliyyətli insanların bazara çıxışını təmin etməkdir. Azərbaycan insanı çox qabiliyyətli, bacarıqlı insandır. Onlara verilən fürsət və bazar şərtləri dəqiq olarsa, insanlar riskləri dəqiq hesablaya bilərsə, o zaman onların yaradıcı gücü ortaya çıxır. İkinci bir məsələ odur ki, iqtisadi institutları inkişaf etdirmək lazımdır. Bunun da hazır modelləri var, yenidən nə isə kəşf etməyə ehtiyac yoxdur".

İqtisadçının fikrincə, dünyada Azərbaycanla eyni aqibəti gözləyən çox ölkələr də var: “Hətta Azərbaycan onların bəzilərindən fərli olaraq resurslarından daha yaxşı istifadə etməyi bacardı. İndoneziya təcrübəsi var ki, vaxtilə xeyli qaz istehsal ediblər, indi kəskin azalıb. Afrikada xeyli ölkə var ki, onların müxtəlif mədən sahələrində istehsalları azalıb. İstehsal azalanda ölkəyə gələn pulun miqdarı azalır və cəmiyyət, dövlət kasıblaşmağa başlayır. Bu prosesin yeganə nəticəsi ölkənin gəlirlərinin azalması, iqtisadi baxımdan zərbə almasıdır. Elə bir ölkənin təcrübəsi yoxdur ki, neft gəlirləri azalsın, ancaq ölkə inkişaf trayektoriyasını itirməsin, daha da sürətləndirsin. Çünki neft elə də köhnə sahə deyil, yeni sahədir”.

**❑ Nərgiz LİFTİYEVA, “Yeni Müsavat”**




## “Bu il Azərbaycanda iqtisadi artım 1,7%-ə yüksələcək” - Asiya İnkişaf Bankı

**“2018-ci ildə Azərbaycanda iqtisadi artım 1,7%-ə, 2019-cu ildə isə 2%-ə yüksələcək”.**

“APA-Economics” xəbər verir ki, bu barədə Asiya İnkişaf Bankının (AİB) “Asiya İnkişaf Proqnozu 2018" adlı hesabatında qeyd olunub.

Hesabat müəllifləri qeyd edir ki, proqnozlara əsasən, 2018-2019-cu illərdə Azərbaycanda inflyasiya müvafiq olaraq 7% və 8% təşkil edəcək. “Yüksək neft qiymətləri, xidmətlər və kənd təsərrüfatından əldə olunan gəlirlər sayəsində 2017-ci ildə Azərbaycanda iqtisadi vəziyyət sabitləşib. Bununla yanaşı, tədiyyə balansında da profisit qeydə alınıb. Neft qiymətlərinin növbəti dəfə aşağı düşəcəyi təqdirdə 2018-ci ildə sənaye istehsalının 0,5% azalacağı proqnozlaşdırılır. Buna baxmayaraq, ilin ikinci yarısında ”Şahdəniz-2" layihəsinin istismara verilməsi ilə qaz hasilatının 3% artacağı gözlənilir. Dövlət investisiyalarının, infrastruktur və mənzil tikintisinin artması nəticəsində 2018-ci ildə tikinti sektoru 6%, 2019-cu ildə isə 3% böyüyəcək. Eyni zamanda yüksək gəlirlər və milli valyutanın sabitliyi həm 2018, həm də 2019-cu ildə fərdi istehlak həcminin artmasına səbəb olacaq. Qaz hasilatının artması 2019-cu ildə xalis ixracı da genişləndirəcək".

AİB “Şahdəniz-2" layihəsinin istifadəyə verilməsi, neft qiymətlərinin 60 dollardan yuxarı olması səbəbindən tədiyyə balansının profisitinin 2018-ci ildə ÜDM-in 6,9%-nə, 2019-cu ildə isə 6,2%-nə bərabər olacağını proqnozlaşdırır. ”İdxal əməliyyatlarının bu il 6% azalacağı, ixracın isə 13% artacağı gözlənilir", - deyə hesabatda vurğulanıb.

YENİ MÜSAVAT
N 78(6967) 12 aprel 2018

# Böyük güclərin "yorğan" davası - Bakı və Qarabağ üçün unikal şans

## ABŞ və Rusiyanın Suriyaya görə toqquşması Güney Qafqaza, Qarabağ məsələsinə də sirayət edəcək; Kreml-Qərb çəkişməsi Ermənistanla blits-savaşı tezləşdirə bilər - yeni ssenari və xəbərdarlıqlar...



**ABŞ və Rusiya arasında gərginlik günbəgün böyüyür. Hazırda onlar arasında Suriyaya görə toqquşma ehtimalı beynəlxalq gündəmin əsas mövzusudur. Xüsusən də rəsmi Moskvanın dəstək verdiyi Bəşər Əsədin az öncə öz xalqına qarşı növbəti dəfə kimyəvi silahdan istifadə eləməsi haqda xəbər Qərbdə, ABŞ-da qəzəb, Suriya rejimini sərt cəzalandırmaq üçün güclü motivasiya yaradıb. Siyasi təhlilçilər hazırda ən çox iki supergücün mümkün hərbi toqquşmasının doğuracağı nəticələri hesablamağa çalışırlar.**

Bu ərəfədə ABŞ-in "Skripal olayı"ndan sonra Putin Rusiyasına qarşı növbəti sərt sanksiyalar tətbiq eləməsi vəziyyəti daha da tündləşdirib. Rus rublu zəifləməyə başlayıb, ölkənin iqtisadiyyatı və maliyyə sistemi yeni və daha ağır itkilər və risklərlə üzləşib. Bütün bunlar yekun olaraq Moskvanın Qərblə münasibətlərini bir az da soyudub, iki güc mərkəzi arasında hərbi toqquşma riskini artırıb. Siyasi müşahidəçilərə görə, heç birinci "soyuq savaş" dövründə də iki qütb arasında münasibətlər bunca təhlükəli həddə çatmayıb. İndi hətta "üçüncü dünya savaşı"ndan danışılır.

*****

Baş verənlər, sübhəsiz, Azərbaycanın yerləşdiyi Cənubi Qafqaz regionundakı vəziyyətə də təsirsiz ötüşməyəcək. Bölgə uğrunda fövqəldövlətlərin rəqabəti başqa "maraq zonaları" kimi, burada da güclənəcək və mümkündür ki, bu rəqabət savaşa keçsin. Bunu da unutmaq olmaz ki, Suriyadakı hərbi əməliyyatlar teatrı Güney Qafqazdan çox da uzaqda deyil və Qərbin hədəf aldığı Rusiya və İran bizə qonşu ölkələrdir. Bundan əlavə, strateji müttəfiqimiz Türkiyə və strateji tərəfdaş ölkə İsrail də yeni sınaqla üzləşəcək.

Aydındır ki, konfrontasiya yaşanacağı təqdirdə Bakının böyük güclər arasında ənənəvi balanslı siyasət aparması çətinləşəcək. Çünki ABŞ və Rusiya da, İran da region ölkələrindən, ilk növbədə isə strateji tərəfdaş və müttəfiq ölkələrdən daha konkret mövqe istəyə bilər. **Bəs "dalaşan fillərin ayağı altında ot olmamaq" üçün Azərbaycan tarazlaşdırılmış xarici siyasət kursunu qoruyub saxlaya biləcəkmi?**

Analitiklərin bu yöndə diqqətçəkən gözləntiləri və xəbərdarlıqları var.

*****

"Üçüncü Dünya müharibəsi olmayacaq. Bunun əvəzinə dünya müharibəsinin bütün formalarına bənzər şəkildə postsovet məkanının bölüşdürülməsi uğrunda müharibə olacaq". Bu sözləri Axar.az-a açıqlamasında **tanınmış rusiyalı politoloq Qriqori Trofimçuk** deyib. Onun sözlərinə görə, ümumi böyük müharibə üçün ilkin şərt kimi hərbi baxımdan bərabər olan dünya mərkəzləri olmalıdır.

"Ona görə də gələcək böyük hadisələrə hazırlaşmaq lazımdır. İlk növbədə bu hazırlığa Avrasiya məkanındakı ölkələr başlamalıdırlar. Əgər Suriyadakı situasiya tam olaraq qeyri-stabilləşsə, mənfi kütlə Qafqaz-Xəzər-Türküstan xəttinə qalxacaq. Üstəlik, kiçik olmayan Ukrayna da hər zaman bu prosesləri "dəstəkləməyə" hazırdır. Cənubi Qafqaz bu kontekstdə stabilliyə, xüsusən də istənilən an alovlana bilən Qarabağda stabilliyə ümid etməməlidir", - deyə ekspert xəbərdarlıq edib.

Onun sözlərinə görə, bu üzdən, Azərbaycan da daxil olmaqla, heç kim düşünməməlidir ki, sanksiyalar təkcə Rusiyaya təsir edəcək: "Rusiya, sadəcə olaraq, postsovet və Avrasiya məkanına rahat giriş imkanıdır. Əgər günlərin birində Rusiya üçün düzəlməsi mümkün olmayacaq bir şey baş versə, onunla eyni anda həm oponentləri, həm də dostları olan qonşuları öz müdafiələrini itirəcəklər. Ona görə Qərb sanksiyalarının təsiri tezliklə onların üzərində də müşahidə ediləcək".

Rusiyanın bölgədə ən yaxın müttəfiqi və yeganə forpostu isə Ermənistandır. Belə çıxır, Qərb-Rusiya "yorğan" davasının "küləyi" ən çox işğalçı ölkəni vuracaq, nəinki Qərbin Rusiyadan enerji asılılığını azaltmaq üçün daha böyük önəm kəsb edəcək Azərbaycan. Bu zaman Qarabağ ixtilafının güc yolu ilə həlli üçün yeni şans pəncərəsi açıla bilər. O mənada ki, Rusiyanın başının özünə, Qərblə münasibətləri aydınlaşdırmağa qarışması Bakıya öz ərazilərini ildırım sürətli əməliyyatla, qısa zamanda azad eləmək üçün unikal fürsət yarada bilər.

*****

**Öz növbəsində digər rusiyalı politoloq Konstantin Kalaçev** hesab edir ki, dünya üçün ən qorxulu məqam ABŞ-Rusiya toqquşmasından daha çox, bu toqquşmaya mane olacaq və tərəfləri barışdıracaq alternativ gücün olmamasıdır: "Hələlik dünya siyasətində elə bir nüfuzlu subyekt görünmür ki, barışdırıcı rolu öz üzərinə götürə bilsin. Ona görə də sülhün azsaylı tərəfdarlarından kimə ümid bağlanacağı aydın deyil. Əgər amerikalılar Suriyaya hücum etsə və qurbanlar arasında rusiyalı hərbçilər olsa, o zaman hadisələr qeyri-müəyyən və geri dönüşü mümkün olmayan xarakter alacaq. İndi artıq problem ayrı-ayrı rus milyarderləri deyil. Kimyəvi hücum amerikalılar və rusiyalılar arasında birbaşa toqquşmaya səbəb ola bilər".

Deyildiyi kimi, iki böyük güc arasında münasibətlərin gərginləşməsinin Qafqazda da öz əksini tapacağı güman edilir: "Bölgədə tərəflərdən heç birinin tam nüfuz sahibi olmaması onların burada toqquşma ehtimalını artırır. Digər tərəfdən, Cənubi Qafqazda ABŞ-ın müttəfiqi sayılan Gürcüstanın olması Rusiyanı artıq uzun illərdir narahat edir. Azərbaycana gəlincə, nə Moskva, nə də Vaşinqton Bakının rəqibin tərəfdə yer almasını istəyir. Üstəlik, kimyəvi hücumla aktual olan İran məsələsinin daha da alovlanması Azərbaycanı Vaşinqton üçün daha önəmli ölkə halına gətirir. Siyasi kontekstlə bərabər, Rusiyaya qarşı sanksiyalar Cənubi Qafqaz ölkələrinin hamısı üçün yeni iqtisadi təhlükələrin yaranmasına şərait yaradır. Doğrudur, Ermənistandan fərqli olaraq Azərbaycan və Gürcüstanın Rusiya ilə iqtisadi əlaqələri çox da dərin deyil. Lakin bu ölkələr üçün ən mühüm təhdid Rusiyada saylarının milyonlarla ölçülən əmək miqrantlarının olmasıdır. Bu şəxslərin yaranacaq böhranla ölkəyə geri dönmələri həmin dövlətlər üçün müəyyən çətinliklərin yaranmasına gətirib çıxaracaq ki, bu da arzuolunmaz ssenari hesab edilir".

ABŞ sanksiyalarının və tərəflər arasındakı münasibətlərin Cənubi Qafqaza təsirini şərh edən **Gela Vasadze** isə bölgə dövlətlərinin təcili şəkildə yarana biləcək çətinliklərə indidən hazırlaşmalı olduğunu deyib. O, ABŞ və Rusiya arasında yeni soyuq müharibənin gözləniləndən daha uzun olacağını bildirib: "Kreml ABŞ-ın yeni sanksiyalarına hələlik tutarlı cavab vermək iqtidarında deyil. Biz yaxşı anlamalıyıq ki, "Soyuq müharibə 2" daha ciddidir və uzun müddətə hesablanıb. Hətta qərarları verənlər belə bunun nə qədər çox davam edəcəyini bilmirlər. Cənubi Qafqaza gəlincə isə, burada məsələyə iki aspektdən - siyasi və iqtisadi aspektdən baxmaq lazımdır. Aydındır ki, Cənubi Qafqaz üçün Rusiya iqtisadiyyatının vəziyyəti öz iqtisadi təhlükəsizliyi baxımından vacib elementdir. Buraya həm xarici ticarət, həm də miqrant məsələləri aiddir. Biz heç nəyi dəyişə bilmərik, amma onun neqativ effektinin yumşaldılmasına hazırlaşa bilərik. Bu məsələdə regional tərəfdaşlıq formatı açar rolunu oynamalıdır".

Siyasi aspektə gəlincə isə, analitik bu fikirlə kifayətlənib: "Dünyanın yenilənməsi dövründə regionda dəyişikliklər nəinki mümkündür, hətta qaçılmazdır. Ona görə də bunu, sadəcə, diqqətdə saxlamaq yox, həm də yeni fərqli ssenarilərə hazır olmaq lazımdır".

Təbii ki, Rusiyanın forpostu Ermənistanla öz arasında Qarabağ konflikti yaşayan Azərbaycan da bütün ssenarilərə hazır olmalıdır...

**❑ Siyasət şöbəsi, "Yeni Müsavat"**



## "Dolların bahalaşmasından söhbət gedə bilməz!"- Elman Rüstəmov

**Azərbaycanda makroiqtisadi sabitlik var və bu, çox ciddi iqtisadi dayaqlara söykənir. Ona görə də manatın növbəti devalvasiyasından söhbət gedə bilməz.**

Bunu jurnalistlərə Mərkəzi Bankın rəhbəri Elman Rüstəmov seçkilərdən sonra yeni devalvasiya olacağı haqda yayılan şayiələrlə bağlı deyib.

Azərbaycanın tədiyyə balansının müsbət zonada olduğunu xatırladan E.Rüstəmov bildirib ki, ilin əvvəlindən ölkənin valyuta ehtiyatları artıb. Onun sözlərinə görə, əsas ixrac potensialı olan neftin qiyməti sabit olaraq qalır. Ötən ilin müvafiq dövrünə nisbətən neftin qiyməti 25 faiz yuxarıdır. Ölkədə qeyri-neft ixracı artıb, turizm inkişaf edir və turizmdən əldə olunan valyuta gəlirləri artıb. Ölkədə iqtisadi fəallıq yüksəlib.

"Bu makroiqtisadi mənzərədən görünür ki, devalvasiyadan söhbət gedə bilməz. Manatın zəifləməsindən də söhbət gedə bilməz. Bunun üçün ciddi arqument yoxdur. Əsas xarici ticarət tərəfdaşlarımızı da izləyirik ki, onların valyuta məzənnələrində olan dəyişikliklər psixoloji olaraq 0,2 və ya 0,3 faiz dərəcəsində müəyyən volatillik yarada bilir. Amma bu, ciddi bir şey deyil. Manatın rəsmi məzənnəsi sabitdir. Biz bankların bütün tələbatlarını ödəyirik. Ölkəyə kifayət qədər nağd valyuta gətirilib. Nağd valyutaya olan istənilən tələbatı ödəməyə hazırıq. Biz bu tələbatı ödəyirik və ödəyəcəyik. Məzənnədə tərəddüd üçün heç bir əsas yoxdur. Bir daha bildirirəm ki, ümumi iqtisadiyyat sabitdir. Milli valyutamızın da sabitliyi bu gün çox möhkəm makroiqtisadi dayaqlar üzərindədir. Hamını sakitliyə çağırıram. Biz arzu edirik ki, qonşu ölkələrimizdə də bundan sonra hər şey qaydasına düşsün", - deyə E.Rüstəmov vurğulayıb.

YENİ MÜSAVAT
N 78 (6967) 12 aprel 2018

**11 aprel tarixində Azərbaycanda prezident seçkisi keçirildi. Seçki ərəfəsində bir qrup mühacirlər yüksək vəzifəli hakimiyyət nümayəndələrinin ünvanına təhqirlər, söyüşlü ifadələr işlədirdilər. Hakimiyyət nümayəndələrinin sözlərinə görə, həmin mühacirlər Azərbaycana qarşı olan bəzi qrupların məkrli siyasətlərinin bir parçasıdır. Ölkə ictimaiyyətinin və müvafiq qurumların sayıqlığı nəticəsində seçkiyə qədər ölkədə sabitlik qorunub saxlandı.**

# Seçki bitdi - Azərbaycanda nələr dəyişəcək...

*Bəs 11 apreldən sonra ölkədə nə dəyişəcək?*

**"Yeni Müsavat"a danışan Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı** bildirib ki, seçkidən sonra gözlənilən budur ki, İlham Əliyev yenidən prezident seçiləcək və növbəti illər üçün Azərbaycanın dövlət başçısı kimi fəaliyyətini quracaq: "Başlanmış olan və davam edən proses özünün yeni mərhələsinə qədəm qoyacaq. Ölkə prezidentinin söylədiyi kimi, əgər indiyə qədər regionlarda infrastrukturların qurulması, oranın elektrik enerjisi, təbii qazla təminatı və təchizatı, yolların çəkilməsi, su və kanalizasiya xətlərinin yenidən bərpası ilə bağlı layihələr həyata keçirilib. Nəticədə faktiki olaraq Azərbaycanda regionlar yeni bir inkişaf mərhələsinə qədəm qoyub. Bütün bunlara söykənərək ölkəni daha da inkişaf mərhələsinə çıxarmağa ehtiyac var. Bunu da ölkə prezidenti Nazirlər Kabinetinin 2018-ci il 3 aylıq yekunlarına həsr olunan müşavirəsində söylədi. Azərbaycan artıq islahatların keçirildiyi mərhələyə qədəm qoyur. Aqrar sektorun və regionlarda sənayenin inkişafına ciddi fikir veriləcək. Bununla bağlı artıq konkret təcrübələr var. Sənayelərin salınması regionların aqrar bölgədən sənaye-aqrar bölgəyə çevrilməsinə səbəb olur ki, bu da Azərbaycan kimi müstəqilliyini quran ölkə üçün bir örnəkdir. Azərbaycan özünün regionda liderliyini qoruyub saxlayacaq. Şübhəsiz ki, milli ordumuzun güclənməsi də diqqət mərkəzində olacaq. Çünki işğal olunmuş torpaqlarımızın azad edilməsində, fikrimcə, son sözü qəhrəman ordumuz deyəcək. Ona görə də həmin sahədə ordumuzun daha müasir hərbi texnika ilə təchizatını görəcəyik, eyni zamanda ordunun döyüş qabiliyyəti də gücləndiriləcək. Beynəlxalq səviyyəli transmilli layihələrin reallaşması da daha sürətlə gedəcək. Söhbət xüsusi olaraq Şimal-Cənub və eyni zamanda Cənub-Qərb nəqliyyat dəhlizlərinin inşası və başa çatdırılmasından gedir. Bu, Azərbaycana xüsusi imkanlar gətirəcək. Əlbəttə ki, Azərbaycanın karbohidrogen ehtiyatlarının bazara çıxarılması ilə bağlı başlamış layihələr də davam etdiriləcək. Söhbət Cənub-Qaz Dəhlizinin reallaşmasından gedir ki, orada da işlər uğurla davam edir".

F. Ağamalı bildirib ki, xarici siyasətdə Azərbaycanın balanslı siyasəti əsas götürüləcək: "Məncə, bu ənənə davam etdiriləcək, ikitərəfli münasibətlərə üstünlük veriləcək. Beynəlxalq təşkilatlarla münasibətlərimizdə hansısa xoşagəlməz hadisələrin baş verəcəyini gözləmirəm. Çünki beynəlxalq təşkilatlarda nümayəndələrimizin fəaliyyəti kifayət qədər yüksəkdir. Azərbaycan həm də işğal altında olan torpaqlarımızın qaytarılması səylərini artıracaq. Bu baxımdan ölkə prezidentinin qətiyyətli mövqeyinin şahidi olacağıq. İstisna etmirəm ki, seçkidən sonra Ermənistan tərəfindən konstruktiv addımlar atılmasa, ordumuz öz sözünü deyəcək".

**Ağ Partiya lideri Tural Abbaslı** da bildirib ki, bir çox siyasi gedişlər davam edəcək: "Əvvəla deyim ki, seçki sonrası, çox güman ki, İlham Əliyev prezident olacaq. Xarici siyasətdə, özlərinin də dediyi kimi, balanslaşdırılmış siyasət davam edəcək. İnanmıram ki, Azərbaycan bu gün dünya siyasətində qarşı-qarşıya gələn güclərin hansınınsa yanında açıq şəkildə yer alsın. Yenə də həmin qüvvələr arasında manevr edəcək. Bu isə hakimiyyətlərini qorumaq üçün atdıqları addımdır. Getdikcə bu manevrlərin edilməsi də çətinləşir. Çünki dünya gücləri qütbləşdikcə, qütblərarası münasibətlər kəskinləşdikcə, orbitlərində olan dövlətlərdən konkret mövqelər tələb edirlər. Odur ki, İlham Əliyev hakimiyyətinin bu istiqamətdə fəaliyyəti əvvəlki dövrlə müqayisədə ağır olacaq. Ağıllı hərəkətlərdən biri bu olardı ki, Türkiyə ilə münasibətlər ən yüksək səviyyəyə çatdırılsın. Çünki belə bir qarışıq dönəmdə Azərbaycan kimi xırda və geosiyasi baxımdan önəmli yerdə yerləşən ölkələr təkbaşına siyasət yürüdə bilməzlər. Ona görə də hakimiyyət Türkiyə ilə əməkdaşlığa məcburdur və güman edirəm ki, bunu edəcək. Daxili siyasətdə isə bəzi dəyişikliklər gözləyirəm. Hadisələri analiz etdikdə görürük ki, hakimiyyətdaxili qruplar arasındakı savaş ən pik həddə çatıb. Artıq bu savaşın konturları hakimiyyət nümayəndələrinin müxtəlif vəzifədə duran adamları tərəfindən dilə də gətirilir. Güman edirəm ki, bu seçkilərdən sonra İlham Əliyev köhnə qvardiyada təmizləmə işləri aparacaq və yeni simalar gələcək. Yeni metodların Azərbaycan üçün faydalı olub-olmayacağını da indidən söyləmək olmaz. Çünki bu dəyişikliklərin miqyasından, səmimiliyindən və keyfiyyətindən çox şey asılı olacaq. Sabitliyi qorumaq üçün ağıllı xarici siyasət və daxildə milli barışığa nail olmağa çalışmaq lazımdır. Xarici siyasəti nə qədər mükəmməl təşkil etsək, daxildə xalq, müxalifət, iqtidar arasında körpü olmadıqda istənilən xarici provokasiyaya dövlət açıq olur. Bu isə stabilliyin pozulmasına birbaşa təhddidir. Bunu Yaxın Şərq dövlətlərində gördük. Odur ki, hakimiyyət təcili sürətdə milli barışıq mühiti yaratmalıdır. Ən azından ilk olaraq böyük əfv fərmanı imzalayıb siyasi məhbusları azad etməlidir. Bundan əlavə, siyasi müxalifətlə artıq sivil, hüquqi, siyasi baxımdan əməkdaşlıq qurulmalıdır. Partiyalara siyasi fəaliyyət imkanları yaradılmalı, qeyri-hökumət təşkilatlarının fəaliyyəti daha demokratik şərtlərlə tənzimlənməlidir. Bu addımlar atılarsa, daxili stabilliyin qorunacağına əminəm. Əks təqdirdə isə stabillik dağıla bilər".

**Fəzail Ağamalı:** "Başlanmış olan və davam edən proses özünün yeni mərhələsinə qədəm qoyacaq"
**Tural Abbaslı:** "Hakimiyyət təcili surətdə milli barışıq mühiti yaratmalıdır"





T. Abbaslı bildirib ki, söyüş leksikonunun siyasətə gətirilməsində də hər iki tərəfin günahı var:

"Söyüş leksikonundan istifadə yanlışdır. Bunun aradan qaldırılması üçün ilk addımı, təbii ki, hakimiyyət atmalıdır. Hakimiyyət buradan Avropaya kimlərisə göndərməməlidir ki, orada gedib kimisə söysünlər. Bunun axırı yaxşı nəticələnməyəcək. Söyüşə səbəb olan hallar aradan qaldırılmalıdır. Güc məsuliyyət yaradır. Bu gün güc hakimiyyətin əlində olduğu üçün ilk addımı da onlar atmalıdır. Belə olarsa, ölkədə stabillik davam edib, inkişaf sürətlənər".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Gediləsi uzun yolun yolçuları



**Xalid KAZIMLI**

**Futbolda belə bir deyim var: bir komanda rəqibinin ona verdiyi imkanlar daxilində yaxşı oynayır. Yəni A. komandası zəif tərpənib B.-yə yaxşı oynamağa, qələbə qazanmağa imkan verməsə, B.-nin qələbə qazanmaq şansı heç bir halda 50 faizdən artıq ola bilməz.**

Eyni düstur mübarizə aparılan bütün sahələrə, o cümlədən siyasətə, seçkiyə də aiddir.

Bu gün YAP ona görə bütün seçkilərdə qalib gəlir ki, onun qalib gəlməsinə mane olan, müqavimət göstərən yoxdur.

Nə qədər ki, ortada müqavimət təşkil edən, balans yaradan sanballı qüvvə yoxdur, bu ölkədə seçkilər 100 il bundan sonra da belə keçiriləcək və YAP-ın namizədi bütün seçkilərdə (prezident, parlament, bələdiyyə) qalib gələcək.

Hazırda dünyanın azad, demokratik, şəffaf, qanuni, ədalətli, obyektiv, dürüst (və sair) seçki keçirilən ölkələrinə baxaq. Onlar heç də ona görə bu cür seçki keçirmirlər ki, bunu prezident və ya hakim partiya istəyir.

O ölkələrdə hakimiyyətdə olanların başqa cür seçki keçirmək imkanları yoxdur, bu iş onların vicdanına buraxılmayıb. Onların hakimiyyəti necə olursa-olsun əldə saxlamaq ehtirasını tormozlayan mexanizmlər, institutlar var.

Əgər sabah despotizmə meyli açıq-aşkar olan Tramp seçki saxtakarlığından, administrativ resurslardan sui-istifadə yolu ilə hakimiyyət dövranını uzada bilmək imkanı qazansa, önündə müqavimət görməsə, əmin olun ki, o, məhz elə də edəcək.

Ötən il Fransada Emmanuel Makron seçilmək şansı 50 faizin altında ola-ola sonda seçki prosesinin qalibi oldu. Bu, təkcə onun nailiyyəti deyildi, Fransa demokratiyasının nailiyyəti idi.

Sadə bir ailədən çıxmış Makron bu gün ona görə Fransa prezidentidir ki, 1789-cu ildə fransalı inqilabçılar hücum edərək mütləqiyyəti devirmişdilər. Əlbəttə, bu iki hadisə arasında birbaşa əlaqə yoxdur. Amma dolayısı ilə var. Fransadakı mütləqiyyət devrilməsəydi, sonrakı hadisələr də baş verməzdi, məsələn, Napoleon Bonapart hakimiyyətə gəlib imperator ola, öz diktaturasını qura bilməzdi.

Ancaq Fransada mütləqiyyətin sal qayası bir kərə yerindən oynadı və proseslər gətirib ortaya bu günün Fransasını çıxardı.

O biri demokratik ölkələr də bir günün, bir ilin, hətta bir əsrin içində demokratik olmayıblar, azad seçki keçirməyiblər. Hamısında mütləq 100 illik xanədanlıqlar, 30-40 illik diktatura rejimləri hökm sürüb. Onlar demokratiyaya doğru uzun, sürəkli və tədrici inkişaf yolu keçib gəliblər.

Hikmət Hacızadənin sözü olmasın, demokratiya gerçəkdən də gedilməsi uzun bir yoldur.

Təcrübə göstərir ki, demokratiyaya hazır olmayan ölkələrdə onu kənar müdaxilə ilə bərqərar etmək mümkün deyil. Bunun əyani sübutunu Yaxın Şərqdə gördük. Diktatorları devirən ölkələrdə vətəndaş müharibəsi, xaos başlandı, ölkələr dağıldı. Bu təlatümdən ən yaxşı çıxan Misir oldu, onda da diktator Mübarəkin yerinə diktator əl-Sisi gəldi və 90 faiz səslə prezident seçilərək "yeni Mübarək" olduğunu göstərdi.

Başqa sözlə, toplananların yeri dəyişdi, cəm dəyişmədi. Bir diktatoru digəri əvəz etdi və Qahirədəki Təhrir meydanında ölən minlərlə mülki insanın qanı yerdə qalmış oldu.

Hazırda dünyada qəribə bir "hakimiyyətdən əl çəkməmə" trendi müşahidə olunur və bu trend getdikcə şiddətlənir.

Bu baxımdan oturub bir hakim partiyanın ard-arda "qazandığı qələbələr"dən bir gün bezəcəyini, "artıq elə bir seçki keçirək ki, rəqibimiz qalib gəlsin" düşüncəsinə gələcəyini gözləmək absurddur. Belə şey olmayacaq.

Yaxud sabah yeni bir güclü qüvvə ortaya çıxsa, özünü hakimiyyətə gələcək, onu əlində saxlayacaq qədər güclü saysa, bunu edəcək və sonra o da heç kəsə güzəştə getməyəcək - ta güzəşt etməyə vadar edilənə qədər.

İnsan oğlunun xisləti budur. Onların yaratdığı qruplar, birliklər, təşkilatlar da bu cürdür. Heç də hamısından dürüstlük, obyektivlik, halallıq gözləyə bilməzsən. Gözlərsən, umsuq olarsan.

Bu üzdəndir ki, dünyanın ən böyük meqapolislərinin hava limanlarında belə insanların növbəyə durması və bir-birinin ardınca səliqəli şəkildə hərəkət etməsi işini onların vicdanına buraxmayıblar, məsələni dəmir məhəccərlərlə həll ediblər.

Dövlət idarəçiliyində, hakimiyyətin dinc şəkildə ötürülməsi məsələsində də hər kəsin sözsüz riayət edəcəyi, sui-istifadəyə, əyintiyə, pozuntuya yol verə bilməyəcəyi mexanizmlər, institutlar yaradılmalıdır.

Biz indilikdə həmin o gedilməsi uzun yolun yolçularıyıq.

YENİ MÜSAVAT
N 78 (6967) 12 aprel 2018

**Təcrübə göstərir ki, prezident seçkiləri Azərbaycana xaricdən təzyiq elementləri üçün fürsət rolunu oynayır. Hər dəfə seçkidən bir müddət öncədən anti-Azərbaycan mövqeyində olan qüvvələr hərəkətə gəlir. Bu il də eyni vəziyyət müşahidə edilməkdədir. Azərbaycan hakimiyyətinin də təmsilçiləri son günlər açıq şəkildə bəyan edirlər ki, ölkəmizə qarşı təhdidlər var.**

# 7 illik prezidentlik dönəmi ölkəyə nə gətirəcək?

## Politoloq: “Bu illər ərzində Azərbaycana ciddi təzyiqlər olacaq”

Azərbaycanda prezident seçkisi keçirildi. Seçkidə 8 nəfərin namizədliyi irəli sürülüb. Bunlar prezidentliyə namizədliyi hakim Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülən **İlham Əliyev,** namizədliyi Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası tərəfindən irəli sürülən **Qüdrət Həsənquliyev,** namizədliyi Azərbaycan Sosial Demokrat Partiyası tərəfindən irəli sürülən **Araz Əlizadə,** namizədliyi Milli Dirçəliş Hərəkatı Partiyası tərəfindən irəli sürülən **Fərəc Quliyev,** namizədliyi "Cəbhəçilərin təşəbbüs qrupu" tərəfindən irəli sürülən **Razi Nurullayev,** namizədliyi Müasir Müsavat Partiyası tərəfindən irəli sürülən **Hafiz Hacıyev,** öz təşəbbüsü ilə namizədliyini irəli sürən **Zahid Oruc** və namizədliyi Azərbaycan Demokrat Partiyası tərəfindən irəli sürülən **Sərdar Məmmədovdur (Cəlaloğlu).**

Rəy sorğularına görə, 8 namizədin yarışdığı seçkidə ən şanslı namizəd İlham Əliyevdir.



Mübariz Əhmədoğlu

Yeni seçilən prezidentin səlahiyyət müddəti 5 deyil, 7 il olacaq.

**"Yeni Müsavat"a danışan politoloq Mübariz Əhmədoğlu** 7 illik prezidentlik dövründə siyasi səhnədəki gözlənilən vəziyyət barəsində danışıb. O bildirib ki, ölkə prezidenti İlham Əliyev xarici mətbuata müsahibəsində qarşıdakı illərlə bağlı vacib mesajlar verib: "Orada yeni komandadan, idarəetmə metodlarından, kadr islahatlarından, ictimai nəzarətdən söhbət gedir. Qarşıdakı 7 ildə bunlar Azərbaycanın idarəçiliyində baş verən əsas hadisələr olacaq. Təbii ki, artıq indidən demək mümkündür ki, İlham Əliyev, şübhəsiz ki, qələbə çalacaq. Ona görə də onun xarici mətbuata verdiyi müsahibəni qarşıdakı 7 il ərzində proqram fəaliyyətini açıqlaması kimi başa düşürəm. Hesab edirəm ki, əslində elə doğrudan da prezidentin dediyi fikirlər çox vacibdir və ölkənin idarəçilik sistemi o istiqamətdə dəyişməlidir. Əvvəla, indiki komandaya "sağ ol" deməк lazımdır ki, Azərbaycanı ayaq üstə qoyublar. İstər Heydər Əliyevin, istərsə də indiki prezidentin dövründə bu komanda Azərbaycanın müstəqil olması, iqtisadi cəhətdən qüdrətlənməsi üçün çox işlər görüb. Ancaq bu komandanın gördüyü iş Azərbaycanın daxili ilə hüdudlanır. Azərbaycan əvvəlcə Cənubi Qafqaz miqyasında dövlət oldu. Sonra isə Cənubi Qafqaz regionunun lider dövlətinə çevrildi. İki il öncə ölkə prezidentimiz Azərbaycan-İran-Rusiya üçtərəfli formatını irəli sürdü. Elə başa düşürəm ki, artıq bu ideyanın reallaşması Azərbaycanı Avrasiya materikində strateji təhlükəsizliyi təmin etmək qüdrətində olan dövlətə çevirdi. Təxminən bir ay öncə İran prezidenti Ruhani təklif etdi ki, iki ölkə Afrika ilə Avropanın birləşdirilməsində vacib tranzit rolunu oynaya bilər. Bu, artıq Azərbaycanı dünya miqyasında dövlətə çevirdi. Yəni hal-hazırda Azərbaycan dünya çapında olan dövlətdir. Qarşımızdakı fürsətlər, bizə qarşı olan təhdidlər də tamamilə başqa parametrdədir. Ona görə də hesab edirəm ki, ölkə prezidenti ciddi kadr islahatlarına gedəcək".

Politoloqun sözlərinə görə, prezidentin komandasında gənclər üstünlük təşkil edəcək: "Söhbət yenicə magistr bitirmiş və ya xaricdə təhsilini başa vurmuş gənclərdən getmir. İş təcrübəsi, həyat təcrübəsi olan gənclərdən danışırıq. Düşünürəm ki, ölkə prezidenti onlardan istifadə edəcək. Prezident müsahibəsində məmurlardan da danışıb. Görünür, ölkə prezidentinin fikrincə, indiki vəziyyətdə məmurlara təsir üçün yeni metodlar olmalıdır. Doğrudan da bəzən görürsən ki, məmurlar özlərindən asılı olmadan elə addım atırlar ki, bu, həm dövlətin, həm də ümumi maraqların ziddinə olur. Azərbaycana xidmət edən komandanı bir-iki nöqsanına görə qaralamaq da olmaz. Bütün komandaya münasibətimin müsbət olmasına baxmayaraq, onu da deyim ki, indiki dövrdə Azərbaycanda məmur yorğunluğu var. Rüşvətin artmasını, məmur özbaşınalığının kökünü yoxlayanda görürsən ki, ölkədə məmur yorğunluğu mövcuddur. İctimai nəzarətə gəlincə isə hesab edirəm ki, bununla bağlı da prezident bəzi məsələləri ortaya qoyub. Təklif edərdim ki, Azərbaycanda da nazirliklərin yanında ictimai şuralar olsun. Elə ən yaxşı ictimai nəzarət mətbuatdır. Mətbuat hansısa icra başçısı haqqında yazırsa, ya bu məlumat dərhal yoxlanıb əsaslı təkzib olunmalıdır, ya da tədbir görülməlidir. Elə məlumatlar var ki, mətbuat özü bunun üçün ən böyük ictimai şuradır. Məsələ mətbuata çıxıbsa, reaksiya verilməlidir. İlham Əliyevin prezidentliyinin ötən 5 ilində Azərbaycan Cənubi Qafqazda lider dövlətə çevrildi. 7 illik dövrdə isə Azərbaycanı dünya miqyasında həm siyasi, həm geosiyasi, həm də humanitar, mədəni baxımdan yerini möhkəmləndirən dövlət kimi görürəm. Bu illər ərzində Azərbaycana ciddi təzyiqlər olacaq. Ancaq ölkədə iqtidarla əhali arasındakı münasibətlər, düşünürəm ki, sabitliyi daha da möhkələndirəcək. Nəticədə pis niyyətlər reallaşmayacaq. Xaricdə bir qrup mühacir alət idilər ki, Azərbaycanda söyüşlə ortalığı qarışdırsınlar. Seçkidən sonra onlar da sakitləşəcək. Avropanın Azərbaycana qarşı olan münasibətinə çox təəssüflənirəm. Müxalifətin içində olub, onun bazasına bələdəm. Müxalifətin içərisində o qədər adamı kənara qoyub, Avropa görün kimlərə söykəndi. Əslində bu, avropalıların Azərbaycanın vətəndaş cəmiyyətinə təhqirdir. Şəxsən mən vətəndaş cəmiyyətinin təmsilçisi kimi bacardığım qədər çalışacağam ki, avropalıların Azərbaycanla bağlı mövqeyi sabitləşsin".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Türkiyə ilə Avropa gərginliyi və erməni kəmfürsətliyi...

## Hollandiyada ən böyük "erməni soyqırımı" abidəsi açılır, İrəvana 24 apreldə nazir göndəriləcək

**Hollandiyanın Amsterdam şəhərində qondarma "erməni soyqırımı" abidəsi açılacaq. BBC-nin məlumatına görə, Hollandiyada ilk olmayan bu abidə Ermənistanda hazırlanıb. Ancaq 21 apreldə açılışı olacaq abidə Amsterdam erməni-apostol kilsəsinin xarici divarına vurulacaq və ölkədə digər analoji abidələrdən daha məşhur olacaq. Çünki daha əvvəlki abidələr qəbiristanlıqda quraşdırılıb və göz önündə olmayıb.**

Heykəlin qoyulmasına ayrılan yer üçün pulu da yerli ermənilər toplayıb. Yerli ermənilərin fikrincə, bu heykəlin açılması Hollandiyada "erməni soyrıqımı"nın tanınmasını sürətləndirəcək. Məsələ ondadır ki, bu ilin fevralında Hollandiya parlamenti "1915-ci ildə Anadoluda baş verən hadisələrin soyqırımı olaraq tanınması" ilə bağlı qanun layihəsini qəbul edib.

Türkiyə hökuməti bu qərara sərt etiraz edib. Bundan sonra Hollandiya hökuməti parlamentin qərarını dəstəkləmədiyini və "soyqırımı tanımadığını" elan edib. Ancaq bununla yanaşı, Hollandiya hökuməti ermənilərə bəzi ciddi "reveranslar" edib. 24 apreldə İrəvana bir hollandiyalı nazir göndəriləcək. Hollandiyadakı türk dərnəkləri isə abidə ilə bağlı etiraz bəyanatı yayıb.

Məsələ ondadır ki, son illərdə Avropa ölkələri ilə Türkiyə arasında münasibətlərin soyuması, hətta bəzi ölkələrlə, xüsusən də Almaniya, Avstriya və Hollandiya ilə Ankara arasında ciddi problemlərin olması ermənilərin işinə yarayır. Daim belə məqamlardan kəmfürsətcəsinə yararlanan erməni lobbisi məhz Avropada artan türkiyə əleyhdarlığından istifadə edir, "erməni soyqırımı"nın tanınması üçün cəhdləri artırır. Son illərdə xüsusən də adlarını qeyd etdiyimiz ölkələrdə ermənilərin fəallaşması müşahidə olunur. Türkiyə diasporu isə güclü olmasına rəğmən erməni yalanlarına ciddi təpki verə bilmir. Çünki bir tərəfdən onsuz da son illərdə Avropada müsəlmanlara, türklərə münasibət soyuqlaşıb, digər tərəfdən də Türkiyə hökuməti ilə Avropa ölkələrinin bir çoxu arasında gərginliklər baş verir və bu da istər-istəməz siyasətə, eləcə də bu kimi mövzulara təsir edir.



Hollandiya hökuməti hələlik açıq şəkildə "soyqırımı" tanıya bilmir, amma parlament artıq bu addımı atıb. Almaniya parlamenti isə iki il əvvəl, 2016-cı ilin mayında "erməni soyqırımı" layihəsini müzakirəyə çıxararaq tanıyıb. Bir çox müşahidəçilər bu qərarın sırf siyasi olduğunu və Türkiyə ilə pisləşən münasibətlərə reaksiya olduğunu qeyd edirdilər. Çox güman ki, bu tendensiya yüksələn xətt üzrə davam edəcək. Erməni diasporu Avropada, eləcə də dünyanın başqa regionlarında fəaliyyətini davam etdirəcək. Xüsusən də Türkiyə ilə münasibətləri soyuqlaşan, Ankaraya təzyiq etmək istəyən hökumətlər məhz ən zəif yerdən "erməni kartından" yapışacaqlar.

Beləliklə, Türkiyə siyasi hakimiyyətinin Avropa ilə münasibətləri və yaranmış boşluqlar ermənilərin işinə yarayır, daha dəqiqi ermənilər bu vəziyyətdən yararlanır. Analoji vəziyyət Azərbaycanla da yarana bilər. Erməni diasporu məhz Azərbaycanın əleyhdarlarının zəif olduğu və ya soyuq olduğu ölkələrdə daha rahat çalışır və siyasi dairələrdəki antipatiyanı və ya soyuq münasibətləri öz xeyirlərinə çevirə bilirlər.

Ankara Avropa ilə anlaşmaq istəməsə və münasibətlərdə soyuqluq davam edərsə, daha ciddi problemlərlə qarşı-qarşıya qala bilər. Xüsusən də erməni məsələsində.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 78 (6967) 12 aprel 2018

# "Ola bilər ki, hakimiyyət bizdən yeni müxalifət yaratmaq istəsin"

## Natiq Cəfərli: "Bir insanın ömründən beş il alıb, onu liderə çeviririk demək absurddur"



**Aprelin 7-8-də keçirdiyi qurultayla partiyaya çevrilən REAL hərəkatı ətrafında sosial şəbəkələrdə bəzi müzakirələr gedir. Qurumun ənənəvi müxalifətdən fərqli olmayacağı bildirilir. Eyni zamanda hakimiyyətin REAL vasitəsilə yeni müxalifət qurmaq istədiyi barədə iddialar səslənməkdədir.**

*Bu və ya digər məsələlərlə bağlı REAL-ın icraçı katibi Natiq Cəfərli ilə söhbət etdik.*

***- Natiq bəy, REAL-ın ənənəvi müxalifətdən heç bir fərqinin olmayacağı deyilir...***

- Ənənəvi müxalifətin metodları və onların bu günə qədər atdıqları addımlarla razılaşsaydıq, o yolla getsəydik, yeni partiyanın qurulmasına nə ehtiyac var idi? Mövcud olduğumuz 9 ildə dəfələrlə digər partiyalardan təkliflər almışıq, elçilik də ediblər, dəvət də. Bunun qarşılığında onların hər hansı birində fəaliyyətimizi davam etdirə bilərdik. Atacağımız addımları, görəcəyimiz işləri görmədən indidən belə bir münasibət sərgiləmək anlaşılan deyil. Son 9 ildəki fəaliyyətimizlə çox şeyi sübut etmişik. Ənənəvi müxalifətin atdığı addımlara ya qoşulmadıq, ya da bununla razılaşmadıq. Hətta onları tənqid etdiyimiz hallar da oldu. Milli Şuranın qurulmasından başlayaraq, son mitinqlərə qədər bir çox əks mövqelərimiz oldu. REAL yeganə müxalif qurumdur ki, artıq beş ildir elan etdiyi proqramlar sənədi var. 70 səhifəlik sənəddə ölkənin bütün istiqamətləri orada qeyd olunub. Hətta hökumət beş il öncə yazdığımız bəzi məsələlərin həyata keçirilməsində müəyyən addımlar atıb. Məsələn, beş il qabaq Milli Təhlükəsizlik Nazirliyinin siyasi qurum kimi fəaliyyət göstərməsinin düzgün olmadığını və onun iki quruma ayrılmasının vacibliyini qeyd etmişdik. Bir müddət sonra bu, baş verdi və proqram sənədlərimizdə nə yazılmışdısa, o da oldu. Regional təhsil və səhiyyə idarələrinin yaradılmasını daha doğru olduğunu yazmışdıq, bununla bağlı da müəyyən addımlar atıldı. Digər sahələrdə də yazdıqlarımızdan yararlanma halları olub. İlk günlərdən elan etmişik ki, parlament sistemli siyasi qurum, yəni parlament partiyası yaradacağıq. Kütləvi üzvlüyə önəm verməyəcəyimizi elan etmişik. Formal olaraq kiminsə ərizə yazması önəmli deyil. Bu istiqamətdə də digər partiyalardan ciddi fərqimiz var. İlk gündən ölkədə siyasi dil və üslubun dəyişməsinə, yeni terminlərin, tezislərin və ideoloji diskussiyaların qurulmasına çalışmışıq. Bütün bunlara müəyyən qədər nail də olmuşduq. İstənilən sahəni götürün, o sahədə atdığımız addımlarla sübut etmişik ki, yeni bir yanaşma, düşüncə gətirməyə çalışırıq. Azərbaycanda yeni nəsil yetişib. Bunu, çox təəssüf ki, nə iqtidar, nə də ənənəvi müxalifət anlamır. Müstəqillik illərindən başlayaraq, anadan olanların artıq 26-27 yaşı var. Onlar iş-güc, ailə sahibi olublar. Bu gənclər üçün tamam fərqli Azərbaycan baxışları var. Bu gənclərin siyasi tərcüməçisinə çevrilməyə çalışmışıq. Bir çox hallarda məqsədlərimizə nail olmuşuq. Səhvlərimizin olmadığını demək düzgün olmazdı. Səhvsiz nə təşkilat, nə də insan var. Çalışmışıq ki, etdiyimiz səhvlərdən nəticə çıxaraq, sonrakı fəaliyyətimizdə bunları təkrarlamayaq. Partiyamızda daxili demokratiya mövcuddur. Bu partiyanın bir şəxsin olmadığını dəfələrlə vurğulamışıq. İlqar Məmmədov hazırda partiyanın sədridir. Amma istənilən müzakirədə onun bir səsi var. Dəfələrlə olub ki, İlqar Məmmədov həbsdə olmasına baxmayaraq, onun verdiyi təkliflər İdarə Heyətində səsvermədən keçməyib.

***- Siz indi demək istəyirsiniz ki, ölkəmizdə siyasi partiyalar şəxslər üzərində qurulub?***

- Hansısa partiyada sədr təklif verir, onun əleyhinə çıxırlar? Belə bir fakt yoxdur. REAL olaraq artıq bu ənənəni yaratmışıq. REAL bir və ya bir neçə şəxsin təşkilatı olmaqdan çoxdan çıxıb. Bu, artıq ideoloji bir formaya çevrilib.

***- Qurultaydan sonrakı əsas ittihamlardan biri də odur ki, hakimiyyət REAL-ın fonunda yeni müxalifət qurur...***

- Bu hakimiyyət REAL-ın fonunda yeni bir müxalifət qurmağa cəhd etsəydi, sədrimizi beş ildən çoxdur niyə həbsdə saxlayır? Bir neçə ay saxlayıb azad edə bilərdi. Belə ittihamları az eşitməmişik. İqtidarın nə fikirləşdiyi bizi maraqlandırmır. Ola bilər ki, hakimiyyətin bizdən yeni müxalifət yaratmaq istəyi olsun. Əgər onlarda bu düşüncəsi olsaydı ki, ölkədə normal iqtidar-müxalifət münasibətləri formalaşsın, bu, çox yaxşı olardı. REAL normal siyasi dil və üslubun ölkədə formalaşmasının daim tərəfdarı olub. İqtidarın belə bir fikri varsa, bunun bizə dəxli yoxdur axı. Biz, sadəcə, düşmənçilik üzərində qurulan siyasətin əleyhinəyik. Nifrət üzərində siyasət mövcud olmamalıdır. İqtidarın içərisində də bizim düşüncədə olanlar varsa, bu, çox yaxşıdır. Bunun ölkəyə heç bir ziyanı yoxdur.

***- Amma ənənəvi müxalifət sizlər kimi düşünmür. İqtidar kimi müxalif düşərgədə rəqibinə münasibətdə nifrətə köklənib. Ola bilərmi ki, sizlərin bu münasibəti REAL barədə belə ittihamlara, düşüncələrə yol açır?***

- Qeyd etdikləriniz ola da bilər. Belə fikirlərin dolaşması bizdən qaynaqlanmırsa, heç kimin ağzını bağlaya bilmərik. Heç kimin fikirlərini nəzarət altına almaq düşüncəsindən də çox uzağıq. Amma söhbət sərt üslubdan gedirsə, çox təəssüf ki, ənənəvi müxalifət problemi şəxslərdə görür. Onlar düşünürlər ki, başqa prezident, nazir, yaxud digər məmur olsa, hər şey dəyişəcək. Anlamırlar ki, bu, şəxslərlə bağlı problem deyil. Bu, sistem problemidir. Bunun dəyişməsinə, yeni idarəçilik sisteminin formalaşmasına çalışmalıyıq. Şəxslərin dəyişməsi məsələnin önəmli tərəfi deyil. Son zamanlar ölkədə bir neçə nazir dəyişdi, o nazirliklərdə ciddi dəyişiklərin şahidi olduqmu? Ənənəvi müxalifətin əsas səhvlərindən biri də şəxslərə fokslanmalarıdır. Çünki partiyaların özləri də şəxslər üzərində qurulub. Müstəqillik illərinə baxsaq görərik ki, Azərbaycanda 90-cı illərdə qurulan partiyaların bəziləri, ümumiyyətlə, sıradan çıxıblar, heç kimin yadına da düşmürlər. İndi ayaqda duran partiyalara da diqqət yetirsək, 2000-ci illərdə daha güclü olduqlarını görərik, indi isə getdikcə daha da zəifləyirlər. Bunun səbəblərini tək basqılarda, həbslərdə, hökumətin atdığı addımlarda görmək yanlışdır. Demokratik olmayan ölkələrdə hakimiyyətlər yerində qalmaq üçün təzyiq və digər yollardan istifadə edirlər. Amma son illərin bütün uğursuzluqlarını tək bununla izah etmək doğru deyil. Deməli, insanlara başqa üsullar, yaxşının necə olacağını çatdırmaq lazımdır. Cəmiyyətimiz çox praqmatikdir. Hər kəs problemləri bilir, lakin yaxşının necə olacağını heç kəs təqdim etmədiyi üçün bu cür durum yaranıb. Ancaq ümumi sözlərlə çıxış ediblər. Bizlərin məqsədləri odur ki, ümidləri bərpa edək. Yaxşının necə olacağını göstərmədiyimiz sürəcdə insanlar siyasətdən kənarda qalacaqlar.

***- Yeni müxalifət ittihamını üzərindən atmaq üçün nələr etməyi düşünürsünüz?***

- Bu ittihamları səsləndirənlər bunu əsaslandıra bilmirlərsə, biz niyə müdafiə mövqeyinə çəkilib deməliyik ki, bu belə deyil? Bizim belə bir dərdimiz də yoxdur. Kimsə ittihamlar səsləndirirsə, sübutları olmalıdır. Ən böyük sübutlardan biri budur ki, bir siyasi təşkilatın sədri beş ildən çoxdur ki, həbsdədir. Bu hər şeyi deyir.

***- İlqar Məmmədova qarşı hakimiyyət tərəfindən bu cür münasibətin sərgilənməsinin arxasında onun və REAL-ın populyarlıq qazanması niyyətinin olduğu da iddia edilir...***

- Bəy, bu, beş il olmur axı. Bir il, yaxud uzağı iki il olardı. Əgər belə olsaydı, bu ittihamları səsləndirənləri haradasa başa düşərdik. Beş il bir insan ömrünün az qala 10%-idir. Bir insanın ömründən beş il alıb, onu liderə çeviririk demək absurddur. İnsanların həyatı ilə belə oynamaq mümkün də deyil.

***- REAL-ın son beş ildə güclənməsinə ən çox sədrin həbsdə olması göstərilir. Belə fikirlər də var ki, İlqar Məmmədov azadlığa çıxandan sonra bu prosesin qarşısı alınacaq...***

- Gələcəklə bağlı indidən bir söz demək çətindir. Təbii ki, İlqar Məmmədovun həbsdə olması onun və təşkilatın populyarlığını xeyli artırdı. Bu populyarlıq həm də məsuliyyət deməkdir. Bunu yaxşı anlayırıq. Gözləntilərin şişməsi heç də yaxşı deyil. Əksinə, biz çalışmışıq ki, gözləntiləri aşağı salaq. Çünki şişən gözləntilər həyata keçməyəndə xəyal qırıqlığına gətirib çıxarır. Bizə asılı olmayan səbəblərdən də bu gözləntilər cəmiyyət daxilində şişib. İlqar həbsdən çıxdıqdan sonra bizim üçün daha məsuliyyətli, ağır bir dövr başlayacaq, məsuliyyətimiz daha da artacaq. Çalışacağıq ki, gözləntilərin aradan qalxmasına imkan verməyək. Ən azından bu gözləntiləri idarə etməyə çalışacağıq. Bunu nə qədər bacaracağıq, zaman göstərəcək.

### "İlqar Məmmədov həbsdən çıxdıqdan sonra bizim üçün daha məsuliyyətli, ağır bir dövr başlayacaq"

***- İ.Məmmədov azadlığa çıxdıqdan sonra bu, REAL-ın populyarlığını artıracaq, yoxsa əksi baş verəcək?***

- Hər şey İlqarın və təşkilatın atacağı addımlardan asılı olacaq. Belə bir risklər var ki, REAL-ın populyarlığının böyük bir hissəsi İlqarın həbsinin üzərində qurulubsa, o, azadlığa çıxdıqdan sonra bu populyarlığın azalma trendinə keçmə ehtimalları var. Bunu öz aramızda da daim müzakirə edirik. Çalışacağıq ki, İlqar azad olunduqdan sonra onun verdiyi mesajlar və təşkilatın atacağı addımlarla ölkənin ən güclü müxalif qurumuna çevrilək.

***- Qarşıdakı ayda İlqar Məmmədovun azadlığa çıxacağı, nəhayət, reallaşacaqmı?***

- Biz buna çox ümid edirik. May ayında Avropa İnsan Haqları Məhkəməsinin Azərbaycana verdiyi son üç aylıq müddət də bitir. Prezident seçkilərindən sonra may ayında siyasi məhbuslar probleminin aradan qaldırılması üçün böyük addımların atılacağına ümidliyik. Siyasi məhbus ayıbından birdəfəlik qurtarmaq lazımdır. Ölkəmiz üçün bu, çox vacibdir.

***- Diqqət etdim, fikirlərinizdə ən çox ənənəvi müxalifətə kökləndiniz. Gələcəkdə REAL-ı bu qüvvələrlə bir yerdə görsək necə?***

- Biz həmişə bəyan etmişik ki, qapımız bizim tezisləri, proqramları qəbul edən istənilən siyasi təşkilatla dialoqa hazırdır. Bunları bağlı qapılar arxasında etmək düşüncəsindən hər zaman uzaq olmuşuq. Qapımız hətta iqtidara yaxın olan siyasi qurumlara belə açıqdır. Əsas problem odur ki, ənənəvi müxalifətin atdığı addımları öncədən hakimiyyət hesablaya bilir. Nəticədə də əks tədbirləri iqtidar çox effektli görür. Bu səbəbdən də ölkədə ciddi siyasi proses getmir. Bu ənənəni sındırmağa çalışmalıyıq. İstənilən güclü ölkənin peşəkar müxalifəti olmalıdır. Yaxın zamanlarda buna doğru ölkədə müsbət dəyişikliklərin olacağını düşünürəm. Buna iqtidar və müxalifət daxilində hazır olmayan insanlar kifayət qədər çoxdur. Bu baxımdan bir çox siyasi qüvvələrin proseslərdən kənarda qalacağına tam əminəm. Ciddi ideoloji disbut yaransa, bir çox insanlar proseslərə seyrçi qalacaqlar.

***- Son sualım, hərəkat kimi fəaliyyət göstərmək asandır, yoxsa partiya kimi?***

- Bir neçə gündür ki, partiyaya çevrilmişik. Əslində hərəkat kimi fəaliyyət göstərəndə gələcəkdə qurulacaq partiyanın formatına uyğun təsisatlarımızı qururduq. Biz bilirdik ki, günün birində bu, baş verəcək. Hərəkat kimi fəaliyyətin asan olduğunu deyə bilmərəm, amma elə daha çevik idi. Çünki hərəkatda müxtəlif fikirli şəxslərin olması normal sayılır. Partiya daha çox ideoloji çərçivədədir. Partiyanın daha ciddi, intizamlı bir fəaliyyət növü olduğunu yaxşı anlayırıq. Bunun üçün partiya kimi fəaliyyətin çətin olacağını bilirik. Amma məsuliyyətli və effektiv olacağımıza inanıram.

**❑ Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 78 (6967) 12 aprel 2018



# Dünya müharibəsi belə asan məsələdirmi?..

**Hüseynbala SƏLİMOV**

**Bizi, adi insanları böyük siyasət mənsublarından və onların eynəkli-saqqallı ideoloqlarından fərqləndirən cəhətlər çoxdur. Ən birincisi də budur ki, onlar müharibə, ölüm və insan tələfatları haqqında elə sakit, elə təmkinlə, elə emosiyasız danışırlar ki, biz adi insanlar heç bir halda bunu bacarmarıq.**

Bəli, biz, məsələn, yoldaş Cuqaşvili - Stalin kimi "Bir insanın ölümü faciə, yüz insanın ölümü isə statistikadı!" deyə bilmərik, çünki yüzlərlə insanın ölümünü ifadə etmək üçün bizim leksikonumuzda bir söz var və o da DƏHŞƏTdir...

Regiondakı və dünyadakı proseslərdən çox yazırıq. Əslində bu təhlillər bizim də hissiyyatımızı və əsəblərimizi cilalamalı idi. Amma bəri başdan deyim ki, hörmətli professor A.Duqinin dünya müharibəsi haqdakı kiçik açıqlamasını oxuyanda bunu tamam yaddan çıxardıq.

Dünya müharibəsi haqqında elə sakit, elə təmkinlə danışır ki, sanki daha bir dünya müharibəsi labüd və qaçılmazdır və biz bu prosesdən keçməliyik. Hamısı da nədən ötrü? Ondan ötrü ki, bunların transendental və ya irriasional bir sevgi ilə sevdiyi Rusiyaya dünyadakı yeri dar gəlir...

Hörmətli Duqin müəllimin fikirlərinə reaksiya vermək bizim üçün artıq adi bir hal olub. Amma bu dəfə bunu etməyə də bilərdik və heç etmək də fikrimiz yox idi, əgər bir-iki ay bundan irəli V.Putinin dilindən başqa bir fikri eşitməsəydik: "Rusiya olmayan dünya nəyə lazımdır?!."...

Aydındır ki, heç kimin- istər fərd olsun, istərsə də böyük dövlət- kimsənin Rusiyanı dünya üzündən silmək fikri yoxdur; bu dövlət olub, var və olacaq! Amma cənab Putinin sözlərini başqa cür başa düşmək və başqa cür yozmaq lazım gəlir: o demək istəyir ki, dünyanın ağalarından biri Rusiya olmayacaqsa, belə bir dünya nəyə gərəkdir?!.

İndi anladınızmı, əzizlərim?.. İşin qəlizliyindən də indi bu başabəla Rusiya ətrafında çox qəliz proseslər gedir, ətrafındakı iqtisadi, siyasi və diplomatiya həlqəsi günbəgün daralır.

Amma bu qovğada bir qaranlıq şəxs var ki, o da cənab D.Trampdır. Hiss olunur ki, ABŞ siyasət maşını ilə prezidentin arasında əsl mübarizə gedir.

Tramp hələ də deyir ki, Rusiya ilə dil tapmalıyıq. Bir tərəfdən hər gün yeni bir sanksiya tətbiq edir, o biri tərəfdən də V.Putinlə görüşə can atır, özünün biznes məntiqilə ABŞ üçün Rusiyanın yox, məsələn, Çinin daha ciddi təhlükə olduğunu iddia edir. Pentaqon da, elə diplomatları da onun tələsik qərarlarına düzəliş verməkdən artıq beziblər.

Məsələn, bu yaxınlardaca D.Tramp dedi ki, son 17 il ərzində Yaxın Şərqdə 20 trilyon dollar xərcləmişik, ona görə də Suriyanı tərk eləmək lazımdır. Amma Pentaqon buyurdu ki, yox, hələ tezdir.

Bu əlbəyaxa çəkişmə nədənsə mənim yadıma mərhum C.Kennedini salır. Onun ölümü haqqında yüzlərlə ehtimal var. Onların arasında ən sirli, konspiroloji örtüyə bükülmüş fərziyyələr də az deyil. Onlardan biri də budur ki, o vaxt ölkənin hərbi-siyasi elitası Kennedidən yamanca narazı idi, çünki bu adamların fikrincə, C.Kennedi Karib böhranı zamanı tarixi fürsəti əldən vermişdi - belə ki, o vaxt ABŞ-ın nüvə arsenalı SSRİ-dən qat-qat artıq idi...

Təbii, bu, sadəcə, maraqlı, özü də yüzlərlə qeyri - adi, hətta fantastik ehtimallardan biridir. Onların heç biri indiyədək nəinki sübut olunmayıb, heç ciddi fərziyyə kimi də araşdırılmayıbdır. Amma məsəl var, deyirlər ki, Şeytan nəylə zarafat etmir?

Qayıdaq dünya müharibəsi məsələsinə. A.Eynşteynlə də bağlanan məşhur məsəl var. Deyilənə görə, ondan soruşurlar ki, professor, deyə bilərsinizmi, üçüncü dünya müharibəsində insanlar hansı silahlardan istifadə edəcəklər?

Eynşteyn də maraqlı bir cavab verir: "Üçüncünü bilmirəm, amma dördüncü müharibə zamanı yenidən ox və nizə ilə vuruşacaqlar"... Bəli, düşünürük ki, burada əlavə nəsə demək artıq olardı...

Amma A.Saxarov da insanlıq qarşısındakı xidmətini təkcə hüquq müdafiəsi sahəsindəki fəaliyyətində görmürdü. O, düşünürdü ki, nüvə silahının yaradılması insanlığı birdəfəlik qlobal müharibələrdən qurtarıb, çünki bütün Yer kürəsini məhv etmək üçün cəmi 3-4 hidrogen bombası da yetər...

Bəli, Saxarov da belə düşünürdü və o, çox hörmətli filosof A.Duqin cənablarından heç də ağılsız deyildi. Amma bəla bundadır ki, dünya yaranandan onu heç də ən ağıllılar idarə etməyiblər...

# Medvedev üçün müəmmalı dönəm

**Martın 18-də Rusiyada keçirilən prezident seçkilərindən sonra ölkənin baş naziri Dmitri Medvedevin vəzifəsini itirəcəyi haqda müzakirələr səngimir. Adı korrupsiya qalmaqallarında keçən və son bir ildə Rusiyada baş verən etiraz aksiyalarının əsas səbəbkarı kimi göstərilən Medvedevin formalaşacaq yeni hökumətdə təmsil olunmayacağı bildirilir.**



Məsələnin əsas maraqlı tərəfi odur ki, martın 18-dəki seçkilərdə növbəti 6 illik dönəm üçün prezident seçilən Vladimir Putin mayın 7-də and içəcək. O, inauqurasiya mərasiminə iki həftə qalana qədər Dövlət Dumasının razılığı əsasında ölkənin baş nazirini təyin etməlidir. Bu baxımdan qarşıdakı 10 günün Medvedevin baş nazirlik taleyi üçün çox önəmli olduğu vurğulanır. Putinlə Medvedev arasında aprelin 11-də hökumətin illik hesabatı ilə bağlı keçirilən görüşün daha çox pərdəarxası məqamlarının olduğu bildirilir. İddia olunur ki, aprelin 11-də Medvedevin Dumada 6 illik dövrlə bağlı hesabatı onun baş nazir kimi sonuncu çıxışı ola bilər...

Amma Medvedevin istefaya göndərilib-göndərilməyəcəyi barədə ekspertlərin mövqeyi fərqlidir. Onun Putinə heç vaxt xəyanət etmədiyi, hətta prezidentlik kürsüsünü belə ona qaytardığı önə çəkilir. Bu baxımdan qeyd edilir ki, Putin heç vaxt belə sadiq insanı itirmək istəməz.

Əks fikirlər isə ondan ibarətdir ki, yeni prezidentlik dönəmində Rusiya xalqının narazı kəsiminin rəğbətini qazanmaq üçün Kreml sahibi baş naziri qurban verə bilər.

**Politoloq Əhəd Məmmədli** Medvedevin istefasının ertələnə biləcəyi ehtimallarının yüksək olduğunu düşünür: "Medvedevin istefa xəbərləri çoxdan gedir. İndi vəziyyət çox gərgindir. ABŞ-ın rəhbərliyi altında NATO Rusiyanın həm siyasi, həm iqtisadi, həm də hərbi cəhətdən üstünə gedir. İki ildən sonra rubl dollar və avroya münasibətdə yenə düşməyə başlayıb. Eyni zamanda Putinə yaxın çevrə sanksiyalara tuş gəlib. Bunların içində Putinin yeznəsi də var. Suriyada Qərb koalisiyası ilə Rusiya toqquşa bilər. Bütün bu hadisələr bəlkə də Medvedevin istefasını ertələyə bilər. Çünki Putinə çətin dönəmlərdə sözə qulaq asan və ən əsası, sadiq baş nazir və Nazirlər Kabineti lazımdır. Rusiya tarixinə Medvedev zəif baş nazir və prezident kimi düşdü. Amma o özünün adını Rusiya və dünya tarixinə yazdıra bildi. Heç kimin tanımadığı piterli vəkil Medvedev Rusiyanın baş naziri və prezidenti vəzifəsinə qədər yüksəldi. Bütün bunlara görə o, Putinə borcludur. O bu borcunu sadiqliyi ilə ödədi. Düşünürəm ki, Medvedevin özü də başa düşür ki, artıq getmək vaxtıdır. Rusiya ilə Qərb arasında gərginlik azalsa, fikrimcə, Putin Medvedevi istefaya göndərəcək".

**Beynəlxalq əlaqələr üzrə ekspert Elşən Mustafayev** Medvedevə Putinin hələ də inandığını bildirdi: "İndiyə qədər Putin-Medvedev münasibətlərində elə bir ciddi gərginlik olmayıb və hər zaman olduğu kimi, Putinə olan şəxsi sədaqət bu gün də davam edir. Medvedev Rusiya siyasətində sıradan bir fiqur deyil. Hal-hazırda baş nazir olmaqla bərabər, hakimiyyətdə olan Vahid Rusiya Partiyasının lideridir. Sözsüz ki, Vahid Rusiyanın qeyri-rəsmi, real lideri Putindir. Amma Medvedevə verilən etimad da məhz Putinin ona inamından irəli gəlir. Təxminən 10-15 gün öncəyə qədər Medvedevin yenidən baş nazir olacağına tam əminliyim var idisə, bu gün bu əminlik təxminən yarı-yarıyadır. Bu mövqeyim Rusiya mətbuatında Medvedevin adının korrupsiya qalmaqallarında hallandırılması və buna bənzər digər məsələlərlə bağlı deyil. Bayaq dediyim kimi, ona Putinin etimadı bu gün də davam edir. Lakin Rusiyanın vəziyyətində köklü dəyişikliklər var və bunun daha da dərinləşməsi ehtimalları yüksəkdir. Bir neçə il öncə Rusiya-Qərb münasibətlərinin kəskinləşdiyi və sanksiyaların qoyulduğu vaxtlarda Rusiya iqtisadiyyatı dərin böhrana girdi, rubl dəyərdən düşdü , ölkədən çoxmilyardlı investisiyalar çəkildi, iqtisadiyyata böyük zərbələr dəydi və s. Məhz Medvedev hökuməti bir müddət sonra bu böhranın inkişafını dayandırdı, maliyyə bazarında sabitlik yaratdı və s. Bu günlərdə Rusiyaya qarşı tətbiq olunan daha sərt sanksiyalar yenidən böhran yaradıb. Rubl dəyərdən düşür, böyük biznes, banklar sanksiyalar üzündən bir neçə gündə milyardlarla dollar itirdi və bunun daha ağır vəziyyətdə davam edəcəyi də gözlənilir. Faktiki olaraq soyuq müharibə qırmızı cizgiyə yaxınlaşıb. Hərbi, diplomatik sahələrdə qarşıdurmalar da artıb. 1 günün içində 150-yə yaxın rus diplomatının geri qaytarılması, Suriyada vəziyyətin gərginləşməsi, Skripalların bioloji silahla zəhərlənməsi ittihamları və digər belə hallar bu il Rusiyaya yaxşı heç nə vəd etmir. Məhz sadaladığım səbəblərə görə ola bilsin ki, Putin yumşaq xarakterli, dinc dövr üçün daha uyğun gələn yaxın adamı Medvedevi daha sərt, antiqərb mövqeyi olan digər bir yaxın adamı ilə əvəzləsin. Hətta bu ya indiki, ya da keçmiş hərbçilərdən biri ola bilər. Necə ki, Tramp dövlət katibi, biznesmen Tillersonun yerinə Mərkəzi Kəşfiyyat İdarəsinin direktorunu qoydu. Amma eyni zamanda Putinin özünün kifayət qədər sərt olduğunu nəzərə alsaq, balansı saxlamaq məqsədilə Medvedev də yenidən baş nazir təyin edilə bilər. Hesab edirəm ki, bu, Putinin bundan sonra Qərblə hansı dildə və nə şəkildə davranması qərarından asılı olacaq".





**"Əhəd Məmmədli:** "O özü də başa düşür ki, artıq getmək vaxtıdır"
**Elşən Mustafayev:** "Medvedev Rusiya siyasətində sıradan bir fiqur deyil"

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**



# Sülh nağılı, Kəlbəcərdəki hərbi təlimlər, Rusiyaya dikilən nəzərlər

## İşğalçı ölkənin yeni prezidenti sələfinin yolu ilə gedəcəyinə şübhə yeri qoymadı; hərbi yol ciddi şəkildə gündəmə gəlir; politoloq: "Ermənilər işğal etdikləri əraziləri geri qaytarmağı heç zaman düşünmürlər"

**Ermənistanın keçmiş prezidenti Serj Sərkisyanın öz kadrı Aram Sərkisyanı prezident postuna oturtduqdan sonra baş nazir kürsüsünü zəbt etmək istiqamətində sonuncu addımı atması İrəvanda etirazlara səbəb olub.**

Təkcə Qarabağ bölgəsində azərbaycanlılara qarşı deyil, həm də Ermənistandakı dinc əhaliyə qarşı da çoxsaylı cinayətlərə yol vermiş bu dönük Azərbaycan vətəndaşı, Qarabağ "klanı"nın liderinin hökuməti ələ keçirməsi işğalçı ölkənin düşünən insanları tərəfindən əsl fəlakət kimi qarşılanır. Onlar illərdir Qarabağ oyunu arxasında milyardlara sahib olduğu halda, ölkəni fəlakətlərə sürükləmiş, bütün regional layihələrdən kənarda saxlamış bir caninin konstitusiya dəyişiklikləri nəticəsində yenə də birinci şəxs statusunda olmasına qəti etiraz edirlər. Üstəlik, S.Sərkisyan ölkə prezidenti A.Sərkisyanı, sadəcə, oyuncaq kimi istifadə etməklə, yenə də özü baş nazir olaraq Qarabağ danışıqlarında tərəf kimi iştirak etmək istəyir ki, bu da "status-kvo"nun saxlanması, eyni zamanda Ermənistanın fəlakətli həyatının davam etməsi demək olacaq. Etirazların artıq azsaylı müxalifətçinin olduğu parlamentdən eşidilməsi də burdan qaynaqlanır.

Aprelin 11-də Ermənistan parlamentinin iclasında etiraz fişəngləri yandırılıb (Azvision.az). Erməni mənbələri xəbər verir ki, "Yelk" Partiyasının üzvü, deputat Ararat Mirzoyan parlamentin kürsüsünə yaxınlaşaraq vətəndaşları aprelin 13-də keçiriləcək "Serji İnkar et" aksiyası üçün Azadlıq Meydanına çağırıb. O, meydanda azadlıq məşəlini yandıracaqlarını dedikdən sonra əlindəki rəngli fişəngi alovlandırıb. Digər müxalifət təmsilçisi, deputat Lena Nazaryan da ona qoşulub. Qısa vaxtda parlamentin iclas zalını tüstü bürüyüb.

Vitse-spiker Eduard Şarmazanov iclasın təxirə salınması ilə bağlı deputatların təkliflərini rədd edib. Sonda tüstünün zaldan çıxması üçün qapılar açılıb. Bütün bunlar isə onu deməyə əsas verir ki, 2008-ci ildə prezident kürsüsünü silah gücünə, azı 10 ermənini qətlə yetirilməsi nəticəsində ələ keçirən Sərkisyan yenə də qan istəyir.

Son günlər Azərbaycana qarşı Ermənistan tərəfdən səslənən ittihamların hansı məqsəddən qaynaqlandığı da bəlli olur. Əslində təxminlərimiz bundan ibarət idi ki, Azərbaycanın Naxçıvan və digər sərhədboyu ərazilərdən guya Ermənistan ərazilərini atəşə tutması barədə iddialar ermənilərin diqqətini hakimiyyətin sakitcə ötürülməsindən yayındırmağa, cinayətkar Serj Sərkisyanın öz planlarını rahat şəkildə həyata keçirməsinə hesablanıb. Ötən illərin təcrübəsi sübut edib ki, erməni hakimiyyəti özünün maraqları naminə hətta gənc erməni hərbçilərin ölümünə fərman verib və əhalini Azərbaycanla qorxutmaq bahasına ömrünü uzatmağı bacarıb. Bu dəfə də Sərkisyan iqtidarı Azərbaycan və Türkiyənin qəfil hücuma keçəcəyi ilə bağlı təbliğat aparmaqla, daxili auditoriyadakı etirazları boğmaq, hökumətə rəhbərliyi ələ keçirmək və cinayətlərini ört-basdır etmək üçün növbəti fürsətlər qazanmaq istəyir. Əks təqdirdə sıravi ömür yaşamaq ona çox çətin olacaq, çünki taladıqlarına və cinayətlərinə görə hesab verməli olacağını anlayır.

Bu arada Ermənistanın yeni prezidenti Armen Sərkisyanın davranışları da sələfindən fərqlənmir. Xüsusilə də Rusiya və Qarabağ məsələsi ilə bağlı mövqeyindən görünür ki, yeni prezident heç də yenilik gətirmək iqtidarında deyil.

"ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri kimi Rusiya Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesində əsas rollardan birini oynayır". Ermənistanın yeni prezidenti Armen Sərkisyan TASS-a müsahibəsində bildirib. O qeyd edib ki, 23 il əvvəl Qarabağda atəşkəsə Rusiyanın vasitəçiliyi sayəsində nail olunub.

A.Sərkisyan onu da bildirib ki, yaxın günlərdə Moskvaya səfər edəcək. Beləliklə, ilk səfərini Rusiyaya etməklə Sərkisyan köhnə Sərkisyandan fərqlənməyəcəyini nümayiş etdirib. Baxmayaraq ki, o, Avropa ölkəsində səfir işləyib və amma Kremlin iradəsindən kənara çıxmağın fəlakətli olacağını anlayır. Bu arada Rusiyanın Qarabağ məsələsini həll etmək üçün addımlar atacağı barədə ehtimalların dövriyyəyə buraxılması da təsadüfi sayılmamalıdır. Rusiya XİN başçısı Sergey Lavrovun son açıqlaması, tərəfləri Kazan təkliflərinə qayıtmağa çağırması da ənənəvi siyasətin davamından xəbər verir.

Ermənistanın Qarabağ məsələsində sülhə maraqlı olmadığını işğalçı ölkənin son davranışları bir daha təsdiqləyir. Belə ki, bu günlərdə Ermənistan silahlı qüvvələrinin 2-ci ordu korpusu Azərbaycanın işğal altındakı Kəlbəcər rayonunu da əhatə edən hərbi təlimlər keçirib (Virtualaz.org). Erməni mediası Ermənistan silahlı qüvvələrinin Baş qərargah rəisi Movses Akopyana istinad edərək yazır ki, təlimlər ilk dəfə birbaşa təmas xəttində, bilavasitə "müdafiə sahəsində" keçirilib. Habelə döyüş atışları keçirilib, dağlıq şəraitdə döyüş əməliyyatlarının ssenarisi məşq edilib. Təlimlərin ssenarisinə əsasən, Ermənistan ordusunun qüvvələri düşmənin qəfil hücumunu dəf edir, bu zaman "yeni texnologiya" tətbiq edir. Habelə təlimlərdə Kəlbəcər-Sotk (Göyçə mahalı) avtomobil yolunun "Kəlbəcər əhalisinin" mühafizəsinin təmin edilməsinə yönələn fəaliyyət də sınaqdan keçirilib. Təlimlərdə Ermənistan aviasiyasının Mİ-24 zərbə vertolyotarı və Su-25 qırıcıları da iştirak edib.

Azərbaycan ordusu atəşkəsdən əvvəl, 1994-cü ilin qışında Kəlbəcər istiqamətindən hücum əməliyyatı keçirib. Bu hücum əməliyyatı əvvəlcə müvəffəqiyyətlə keçib və xeyli yaşayış məntəqəsi düşməndən azad olunub, lakin daha sonra hücum edən qüvvələrə təchizat dəstəyinin mürəkkəb relyefə, sərt hava şəraitinə görə kəsilməsi və köməyə əlavə qüvvələrin göndərilməsinin mümkün olmaması nəticəsində əməliyyat uğursuzluqla nəticələnib. Lakin indi Azərbaycan Silahlı Qüvvələrinin silah-sursat, hərbi texnika baxımından imkanları, döyüş hazırlığı o dövrlə heç cür müqayisə olunmur. Bunu Ermənistanda da nəzərə alırlar və görünür başa düşürlər ki, Azərbaycan ordusunun mümkün qəfil hücum əməliyyatı hətta ən az ehtimal edilən istiqamətdən-Kəlbəcər istiqamətindən də başlaya bilər.

Göründüyü kimi, yeni prezident həm sülhdən danışır, həm də hərbə-zorba gəlir. Ekspertimiz də hesab edir ki, Ermənistanın yeni prezidentinin gah nala, gah mıxa vurmasında qeyri-adi heç nə yoxdur.

*"Keçmiş illərdə də belə olub. Ermənistan Dağlıq Qarabağ məsələsində sıxışdırılanda guya separatçıların bəzi məsələlərdə razılaşmadığını, Ermənistanla fikir ayrılığını ortaya atırlar. Halbuki belə bir şey yoxdur və Ermənistan bu məsələlərdə biclik işlədir. Bunu həmsədr ölkələr də yaxşı anlayırlar".*

**Politoloq Qafar Çaxmaqlı** "Yeni Müsavat"a belə dedi. Ekspertə görə, Rusiya ilə bəzən razılaşdırılmış fikirləri birgə ortaya atırlar: "Rusiya deyir biz belə deyəcəyik, siz isə bunları söyləyin. Dağlıq Qarabağ məsələsinin həlli problemləri baxımından təşəbbüs çoxdan Rusiyanın əlindədir. Yeni prezidentin ilk səfərini Rusiyaya etməsi də təbiidir. Bu dövlətlər strateji ortaqlar hesab olunurlar və Rusiya bundan sonra da Ermənistanı öz nəzarətindən kənarda addımlar atmağa icazə verməyəcək".

Q.Çaxmaqlı qeyd etdi ki, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı gəlişmələrin seçkilərdən sonra intensivləşməsi gözlənilir: "Hər üç ölkədə seçkilərin bitməsindən sonra digər həmsədr ölkələr də fəallıq nümayiş etdirəcəklər. Gözləniləndir ki, Azərbaycana da basqıları bu ilin ortalarından başlayacaq. Əsas prinsipial məsələ Azərbaycanın Dağlıq Qarabağ ərazisində referendumun keçirilməsinin dayandırılması olacaq. Bu isə Azərbaycanın milli maraqlarına ziddir. Ermənistan prezidentinin sülh mesajı verməsində də qeyri-adi heç nə yoxdur. Əlbəttə, indiki şəraitdə ermənilərə sülh sərf edir. Çünki onların ərazisi işğal edilməyib. Amma biz sülh istəməliyikmi? Zənnimcə, Azərbaycanın indiki halda siyasəti torpaqlarını sülh yolu ilə azad etmək olsa da, bu, mümkün olmadığı təqdirdə onu hərbi yolla azad etmək haqqını əlində saxlamalıdır".

Amma müşahidələr bundan xəbər verir ki, Ermənistan heç də sülhə hazırlaşmır. Politoloq da eyni cür düşünür: "Təbii ki, Ermənilər işğal etdikləri əraziləri geri qaytarmağı heç zaman düşünmürlər. Bu ərazilərdə məskunlaşma gerçəkləşib. Yol çəkilib, qəsəbələr salınıb, bu ərazilərdə indi 23 min adam yaşayır. Sülh onların dilində baş aldatmaq üçün bir vasitədir. Bu səbəbdən iş ciddiləşəndə deyirlər ki, "biz razıyıq" torpaqları boşaltmağa, amma Qarabağdakı "rəhbərlik" bunu istəmir".

Bundan sonra isə bizə Azərbaycandakı prezident seçkilərindən sonra Qarabağ məsələsinin ciddi şəkildə gündəmə gələcəyi barədə ehtimalların nə dərəcədə doğru olub-olmayacağını gözləmək qalır. Seçkilər geridə qaldı, gözləyək...

YENİ MÜSAVAT
N 78 (6967) 12 aprel 2018

# Döş xərçənginin qarşısını almağın sadə yolu tapılıb

**Qadınlar mütləq idmanla məşğul olmalı, əzələ kütləsini artırmalıdırlar. Novator.az-ın məlumatına görə, amerikalı onkoloqlar bu qənaətdədirlər.Onkoloqların apardığı tədqiqatın nəticəsi “JAMA Oncology” jurnalında dərc edilib.**



“JAMA Oncology” onkoloji problemlərə dair tədqiqatlar üzrə ixtisaslaşmış nüfuzlu nəşrlərdəndir.

Amerikalı onkoloqların yeni tədqiqatına görə, əzələli qadınlar döş xərçəngi xəstəliyinə qalib gələ bilirlər. Alimlər 13 il ərzində ikinci və üçüncü dərəcəli döş xərçəngi xəstəliyindən əziyyət çəkən 3 min qadın üzərində apardıqları tədqiqatdan sonra bu nəticəyə gəliblər.

Araşdırma göstərib ki, döş xərçəngi xəstəliyinə tutulmuş qadın əzələli olanda onun yaşamaq şansı da artır.

Alimlər əzələ kütləsinin həcmini kompüter tomoqrafiyası vasitəsilə ölçüblər.

Tədqiqat müəllifləri deyirlər ki, qadının yaşı, yaxud döş xərçənginin hansı mərhələdə olması xəstəlikdən qurtulma məsələsində rol oynamır. Yəni bu faktorların əslində müalicə prosesinə müsbət bir təsiri yoxdur. Tutalım, qadın cavandırsa, yaxud xəstəliyi ilkin fazadadırsa, bu o demək deyil ki, müalicə müsbət nəticə verəcək. Müalicənin müsbət nəticə verməsi üçün əsas faktor qadının əzələli olmasıdır. Əzələləri zəif qadınların döş xərçəngindən ölməsi riski daha çoxdur. Alimlər bu riskin piyli xanımlara aid olduğunu da söyləyirlər.

Amma mütəxəssislər döş xərçəngi ilə bu faktorlar - əzələ, piy kütləsi arasında əlaqənin nədən doğduğunu hələ bilmirlər.

Onkoloqlar xərçəng riskinin fiziki hərəkətlə yanaşı, qida rasionundan da asılı olduğunu deyirlər. Böyük Britaniyanın Lids Universitetinin alimləri apardıqları tədqiqatın nəticələrinə əsaslanaraq insanları qırmızı əti az yeməyə çağırıblar. Mütəxəssislər bununla yoğun bağırsaq xərçənginə tutulma riskini minimuma endirməyin mümkün olduğu qənaətindədirlər.

**Cari ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunmuş hökumət müşavirəsində çıxış edən prezident İlham Əliyev ölkədə şərab istehsalı sahəsində yaranmış vəziyyətə toxunub.**

# Şərab istehsalı niyə artmır - çıxış yolu...

## İlham İdayətov: “Bizdə istehsal olunan məhsulların keyfiyyəti çox yaxşıdır, lakin bunu təsdiq edən sənədləri Avropa laboratoriyalarından əldə etməyə hamının imkanı çatmır”



Bildirib ki, üzümçülüklə, şərabçılıqla bağlı mövcud vəziyyət qaneedici deyil: “İndi ilkin məlumat ondan ibarətdir ki, bizim kifayət qədər emal gücümüz, yəni şərab zavodlarımız var, amma onların bir çoxu zəif işləyir. Yəni istehsal gücünün 20-30 faizi səviyyəsində işləyir. Bilmirəm, vaxtilə sahibkarlar bu zavodları nəyə görə tikiblər, bəlkə pulları çox idi, bilmirdilər ki, pulları haraya yatırsınlar - tikiblər, amma səmərəsiz istifadə edirlər. Bu, heç bir məntiqə sığmayan məsələdir. Ona görə bizim indi vəzifəmiz ondan ibarətdir ki, bu şərab zavodlarını sahibkarlar düzgün şəkildə idarə etsinlər. Üzüm istehsalı bizdə artır, yeni üzüm bağları salınır və mən bunu alqışlayıram. Şərabın ixracı da artır və burada da dövlət öz rolunu oynayır. İxrac missiyaları, sərgilərdə iştirakımız bunu mümkün edir. Ancaq üzümçülük, şərabçılıqla bağlı növbəti xüsusi addımlar atılmalıdır. Vaxtilə biz dövlət proqramı qəbul etmişik. Mən deyə bilmərəm ki, bu proqram lazımi səviyyədə icra edilir. Ona yenidən baxmaq, təhlil aparmaq lazımdır ki, bu proqramın nəticəsində nə əldə etmişik”.

Xatırladaq ki, şərabçılıq sahəsində vəziyyət bundan əvvəl də ölkə rəhbərliyinin diqqətində olub, müxtəlif tədbirlərdə bu sahəyə toxunulub, mövcud problemlərin aradan qaldırılmasının gərəkliyi vurğulanıb.

Rəsmi statistikaya görə, ötən il Azərbaycandan xaricə şərab ixracı 2016-cı ilə nisbətən 68 faiz artaraq 6 milyon dollara çatıb.

Azərbaycanın şərab məhsullarını ən çox idxal edən ölkələrdən biri Çindir. Ötən il bu ölkəyə Azərbaycan təxminən bir milyon dollarlıq şərab tədarük edib.

**Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) prezidenti Rüfət Məmmədovun** sözlərinə görə, 6 milyon dollarlıq ixrac böyük rəqəm deyil: “Lakin nəzərə alsaq ki, ixracın genişləndirilməsi üçün müxtəlif alətlərdən istifadə etməyi planlaşdırırıq, bu hələ başlanğıcdır. Belə ki, 2017-ci ildə İqtisadiyyat Nazirliyi ixracın təşviq edilməsi üçün 3 milyon manat həcmində sənədlər təqdim edib, onlardan 60 faizi şərab ixracatçılarına ayrılıb. Həmçinin biz bir il ərzində Çində əsasən şərab üzrə ixtisaslaşacaq Azərbaycan ticarət evi açmağı planlaşdırırıq. Bütün yerli istehsalçılar və ixracatçılar öz məhsullarını ən rəqabətli şərab bazarına - Çin bazarına ixrac edə biləcəklər”.

Onu da qeyd edək ki, şərab istehsalı və ixracındakı vəziyyəti bir çox mənbələr xammal idxalı və hazır məhsulun ixracında inhisarçılığın olması ilə əsaslandırırlar. Bildirilir ki, bir sıra müəssisələrə istehsalı artırmaq üçün qonşu Gürcüstandan üzüm gətirməyə, bəzilərinə isə istehsal etdiyi məhsulu xaricə çıxarmağa imkan verilmir.

**Azərbaycan Şərab İstehsalçıları və İxracatçıları Assosiasiyasının icraçı direktoru İlham İdayətov** deyir ki, hazırda Azərbaycanda şərab istehsalı 95 faizə qədər yerli xammal hesabına həyata keçirilir: “Bu gün hər hansı inhisarçılıqdan söhbət belə gedə bilməz. Dövlət tərəfindən tam dəstək verilir bu sahəyə. Hazırda yalnız şərab istehsalı üçün zəruri olan köməkçi vasitələr xaricdən alınıb gətirilir. Şərabın rənginin saxlanması, dibinə çöküntü verməməsi və sair üçün zəruri olan vasitələrdən gedir söhbət. Onu da Fransa, Almaniya kimi ölkələrdən gətiririk. Bu vasitələrin ümumi istehsalda payı 5 faizə güclə çatır. Qalan bütün xammal yerlidir. Buna görə də kimsə xammal gətirməyə imkan verilmir fikri reallığı əks etdirmir”.

İ.İdayətovun dediyinə görə, hazırda Azərbaycanın daxili şərab bazarı dolub: “Yeni istehsalı ixracla artırmaq mümkündür. İxrac üçün də məhsulların standartlara tam uyğun olması - sənədləşmə baxımından, eyni zamanda reklam edilməsi, tanıdılması lazımdır. Azərbaycandakı istehsal müəssisələrinin bir çoxunun lazım olan sertifikatları almağa, məhsullarını xüsusilə xarici ölkələrdə reklam etməyə maddi imkanı yoxdur. Dünyada şərab bazarı üçün tələblər çox sərtdir, Avropaya sertifikatsız məhsul çıxarmaq qeyri-mümkündür. Bizdə istehsal olunan məhsulların keyfiyyəti çox yaxşıdır, bu sarıdan problem yoxdur. Lakin o keyfiyyəti təsdiq edən sənədləri Avropa laboratoriyalarından əldə etməyə hamının imkanı çatmır. Buna görə də bəziləri deyirlər ki, Azərbaycanın özündə belə bir laboratoriya yaradılsın, sertifikatlaşma burada aparılsın. Məhsulunu tələblərə uyğun sertifikatlaşdırmış bütün şirkətlər rahatlıqla malını xaricə çıxarır”.

Assosiasiya direktoru onu da bildirdi ki, Azərbaycan şərabı Asiya bazarlarına çıxır, əsas çətinlik oturuşmuş bazar olan Avropaya çıxışla bağlıdır: “Bunun üçün də dövlət tərəfindən zəruri dəstək verilir, sərgilərə qatılırıq, məhsulumuzu tanıtmağa başlamışıq. Buna görə də tezliklə şərab ixracımızın daha böyük sürətlə artmasını görəcəyik”.

İ.İdayətovun sözlərinə görə, hazırda Azərbaycanda 40-a yaxın şərab zavodu var ki, onların da xeyli hissəsi Sovet dövründən qalmadır: “Onlar illər keçdikcə aşınmış, müasir avadanlıqlara ehtiyacı olan müəssisələrdir. 20-30 faiz gücüylə işləyən belə müəssisələrdir. Haradasa 15-18 yeni yaradılan müəssisə var ki, tam gücləri ilə işləyirlər, ixracyönümlü məhsul həmin zavodlarda istehsal olunur. Çox da yüksək keyfiyyətli məhsul istehsal edilir. Göndərdiyimiz heç bir yerdə keyfiyyətlə bağlı problem yaranmayıb”.

**Kənd təsərrüfatı üzrə ekspert Müslüm İbrahimov** da hesab edir ki, şərab zavodlarının tam istehsal gücü ilə işləməməsinin səbəbi inhisarçılıqla bağlı deyil: “Düşünmürəm ki, bütün problemlər inhisarçılıqla bağlıdır. Söhbət çox tələbkar bir bazardan gedir. Bu bazarda Fransa, İtaliya, ABŞ və sair kimi oliqapollaşmış oyunçular var. Belə bazara yeni iştirakçının daxil olması çox mürəkkəb, eyni zamanda da bir xeyli də siyasi məsələdir. Bu baxımdan Azərbaycan istehsalçıları üçün çox çətindir bazara daxil olmaq. Vaxtilə Sovet dövründə Azərbaycan bu bazarda yaxşı yer tutmuşdu. Sonra Qorbaçovun dövrü gəldi - alkoqollu içkilərin satışına qadağa qoyuldu, Azərbaycandakı üzüm bağları məhv edildi, sahə ciddi tənəzzül yaşadı. İndi yenidən bu sahəni dirçəldirlər, üzüm bağları salınır, ixrac üçün dövlət dəstək verir və sair”.

Mütəxəssis deyir ki, hazırda şərabçıların ən böyük problemi marketinqlə bağlıdır: “Marketinq hələ lazımi səviyyədə deyil. Hansısa bazara daxil oluruqsa belə, orada mövqeyimizi möhkəmlədə bilmirik. Buna görə də marketinqi gücləndirməyə, daha müasir metodlardan istifadə etməyə böyük ehtiyac var”.

**İqtisadiyyat və sənaye naziri Şahin Mustafayev** isə şərabçıların daha bir problemini dilə gətirib. Onun sözlərinə görə, şərabçılar istehsal etdikləri məhsulu qablaşdırmaq üçün şüşə qabı xaricdən gətirməli olurlar: “Şərab istehsalçıları şüşə qablar problemini həll etmək üçün xaricdən şüşə idxal etməli olurlar. Bu da xarici valyutanın ölkədən çıxmasına və şərabın maya dəyərinin bahalaşmasına səbəb olur”.

Nazir deyib ki, şərabçılıqda maya dəyərində şüşə qabının məsələsinin təsiri böyükdür: “Bu məsələdə əsas olan marketinqdir. Ona görə də dövlət və şirkətlər müştərək işləməlidirlər. Ötən il Azərbaycanda şərab istehsalı 2 dəfə aşağı düşüb. Ancaq buna baxmayaraq ixrac artıb. Bazarlara çıxışı təmin etməklə xərcləri azaltmaq mümkün olacaq”.

Nazir bildirib ki, bu ilin sonuna qədər “Azərşüşə” MMC tikiləcək istifadəyə verilməlidir: “İnanıram ki, bu zavodun da fəaliyyətə başlaması problemin həllinə nail olmasına yardımcı olacaq”.

❑ **Dünya SAKİT, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 78 (6967) 12 aprel 2018

# Deputatlardan xalqı qıcıqlandıran açıqlamalar - savadsızlıq, yoxsa...

## Hakimiyyətə yarınmaq istəyib hakimiyyətə problem yaradanlar

**Cəmiyyətdə zaman-zaman deputatların verdiyi qalmaqallı açıqlamalar müzakirə mövzusu olur. Bəzən hansısa bölgədə baş verən olaya münasibətləri, yaxud problemlərdən "çıxış yolu" kimi göstərdikləri məqamlar insanları qıcıqlandırır. "Yeni Müsavat" onlardan bəzilərini yada salır.**

**Deputat Hadı Rəcəblinin** xalqın qəzəbinə səbəb olan açıqlamalarından biri "işdən sonra fəhləlik"lə bağlıdır. Həmin açıqlamanı xatırlayaq: "Əgər vətəndaş yaxşı yaşamaq istəyirsə, çox işləməlidir. Əgər bu gün müəllim 150-200 manat maaş alır və dolana bilmirsə, o, işdən sonra da başqa nə iləsə məşğul olmalıdır. Lənkəranın Veravul kəndində Balabəy müəllim adlı şəxs var. O, günün birinci yarısı müəllimlik edir, nahardan sonra isə gedib daş hörür, ustalıq edir. Qazandığı pulla da ailəsini saxlayır. Bunun nəyi pisdir ki?"

Onun daha bir açıqlaması isə məcburi köçkünlər barədə olub. Köçkünlərin yataqxanalardakı otaqlarında "plitka"nı yandırıb pəncərəni açıq qoyduqlarını bildirərək, onların bir qisminin güzəştlərdən məhrum edilməsinə haqq qazandırıb.

2016-cı ilin dekabrında **YAP Xətai rayon təşkilatının sədri, deputat Hüseynbala Mirələmov** da xalq üçün "böhrandan çıxış xəritəsi" çəkdi: "Ayağını yorğanına görə uzat. Azdırsa az ye, çoxdursa çox ye. Adamlar var ki, ət, balıq, çörək yemir ki, formada qalsın. Deməli istəyirəm ki, çox yemək insanı tez qocaldır. Az yemək lazımdır".


Hadı Rəcəbli


Hüseynbala Mirələmov


Naqif Həmzəyev

2016-cı ilin dekabrında Biləsuvarda məskunlaşan məcburi köçkünlərin keçirdiyi aksiya ilə bağlı **120 saylı Cəbrayıl-Qubadlı seçki dairəsindən seçilmiş deputat Astan Şahverdiyev** aşağıdakı fikirləri bildirib: "Onların (Rusiyada yaşayanlar) içində sərxoşlar da var, cəmiyyətin tör-töküntüsü də. Azərbaycan cəmiyyəti haqda Rusiyada çox pis fikir formalaşıb, səbəbi bilirsiniz nədir? Mən bunun səbəbini araşdırmışam. Rusiyaya gedənlər kimlərdir? Bizim cəmiyyətin "otxodları". Gedib bazarda işləyənlər. İndi burda baş qaldıranlar da... Hər yerdə belə tör-töküntülər var".

2015-ci ilin dekabrında isə **deputat Naqif Həmzəyev** musavat.com saytının əməkdaşının Məhəmməd Əmin Rəsulzadənin başına çuval keçirilən büstü ilə bağlı verdiyi sualına kəskin cavab verib. O, Rəsulzadəni vətən xaini adlandıraraq büstünün Gəncədə deyil, ilk respublikanı Tiflisdə qurduğu üçün orada qoyulmasını lazım bilib. Naqif Həmzəyev "Rəsulzadə yaxşı kişi olsaydı, arvadına sahib çıxardı..." sözləri ilə özü də hiss etmədən şok açıqlama verib.

Siyahını uzatmaq da olar. Amma bunlar cəmiyyətdə ən çox səs-küy yaradan açıqlamalardır. Hər belə açıqlamadan sonra sosial şəbəkədə, mediada bununla bağlı ciddi müzakirələr gedib və cəmiyyət bu sözlərin müəlliflərinə qarşı sərt təpki göstərdi. Medianın müşahidəsinə görə, adətən bu sayaq qalmaqallara səbəb olan deputatlar uzun müddət müsahibə verməkdən qaçır və ətraflarında yaranmış bumun sənginəsini gözləyirlər. Və təkcə qalmaqala səbəb olmuş şəxslər yox, digərləri də danışdıqları zaman ciddi səs-küy yaradacaqları üçün susmağı tərcih edirlər.

Media ekspertlərinin qənaətincə, mətbuat nümayəndələrinə, xüsusən də onların təcrübəli olanlarına müsahibə vermək ciddi hazırlıq tələb edir. Deputatlar yaxşı siyasətçi olduqlarını bu sayaq situasiyalarda göstərirlər. Qıcıqlı suallara tolerant olmaq, jurnalistin qurduğu "tələlərə" düşməmək, habelə hər fikrində xalqın tərəfində olmaq vacib şərtlərdən sayılır. Amma təhlillər onu göstərir ki, əksər deputatlar bu tələblərə cavab vermirlər. Bir çox hallarda sözün böyük mənasında siyasət yürütməyə ehtiyac görməyən deputatlar lazımsız səmimiyyət nümayiş etdirirlər ki, bu da sonradan onların əleyhinə çevrilir.

Nə hikmətdirsə, bütün bu cür səs-küylü açıqlamalarda deputatlar bir qayda olaraq xalqın qarşısında dayanırlar. Heç biri də çaşıb hakimiyyət əleyhinə, onun mənafeyinə zidd hər hansı söz danışmır. Bu halda belə onların hər dedikləri birbaşa hakimiyyətin ziyanına işləyir. Bir çox hallarda ekspertlər onların "özünü hakimiyyətə sipər" etdiyi düşüncəsində olur. Yəni hakimiyyətə yönələcək qıcıqları, neqativ reaksiyanı öz üzərlərinə çəkməklə əslində hakimiyyətə xidmət göstərmiş olurlar. Amma bu halda da hakimiyyətə problem yaratmırlarmı?

**"Bu ölkənin deputatı nə vaxt xalqın yanında olacaq"** haqlı sualı o səbəbdən tez-tez səslənir.

❑ **Sevinc TELMANQIZI,**
**"Yeni Müsavat"**

# Bağlanan bankların satılan əmlakının pulu hara yönəldilir...

## Əkrəm Həsənov: "Artıq aydındır ki, toplanan puldan kreditorlara heç nə verməyəcəklər"

**Bağlanan bankların daşınar və daşınmaz əmlakı hərraclar vasitəsilə satılmaqla əmanətçilərin və digər kreditorların bankda batan vəsaitləri ödənilir. Bu proses isə Azərbaycan Əmanətlərin Sığortalanması Fondu və Respublika Xammal və Əmtəə Birjası vasitəsilə həyata keçirilir. Aprelin 10-da verilən xəbərə görə, sözügedən qurumlar ləğvetmə prosesində olan "Bank Standard" QSC, "Texnikabank", "Kredobank", "Zaminbank", "Royalbank" və "Bank of Azərbaycan" ASC-lərin balansındakı daşınar və daşınmaz əmlaklarını 41 lot üzrə satışa çıxarır.**

Fonddan verilən məlumata görə, 20 lot üzrə əmlak II dəfə hərraca, 19 lot üzrə əmlak III dəfə, 2 lot üzrə isə əmlak isə IV dəfə hərraca çıxarılır. IV dəfə hərraca çıxarılan "Texnikabank"ın balansındakı bağ evinin və "Bank Standard"ın balansındakı 1 ədəd "Daewoo Nexia" avtomobilinin ilkin satış qiyməti 30% aşağı salınıb. Bu əmlakların satışı üzrə hərrac aprelin 30-da keçiriləcək.

"Bank Standard"ın balansındakı 8 ədəd müxtəlif xarici markalı avtomobillər, "Royalbank"ın balansındakı 1 mənzil və 2 ev, "Kredobank"ın balansındakı 1 mənzil və "Texnikabank"ın balansındakı 7 ədəd qeyri-yaşayış sahəsi III dəfə hərraca çıxarılıb. Bu əmlakların ilkin satış qiyməti 15% aşağı salınıb.

Bundan başqa, bankların balansındakı bankomat, pulsayan, pulpresləyən aparatlar da hərraca çıxarılır.

Bəs görəsən, bu əmlakların satışı nə dərəcədə şəffaf keçirilir? Prosesə ictimai nəzarət varmı? Satılan əmlakdan əldə edilən vəsaitlər ilk növbədə hansı zərərçəkmişlərə ödənilir?



**"Yeni Müsavat"a açıqlamasında bu sualları cavablandıran bank sektoru üzrə ekspert , hüquqşünas Əkrəm Həsənov** bildirdi ki, "Bank Standard" istisna olmaqla, hərraclarda digər bankların əmlakının satışına ictimai nəzarət yoxdur: "Müflis bankların əmlakının satılması təzəliklə Bakı Hərraclar Mərkəzi vasitəsilə həyata keçirilir. Buna da "Bank Standard"ın kreditorları olaraq biz nail olmuşuq. Bundan öncə isə, müflis bankların əmlakları ləğvedici, o cümlədən Əmanətlərin Sığortalanması Fondu həyata keçirirdi. Biz yalnız "Bank Standard"ın əmlakının satılması üzrə hərraclarda iştirak edirik. Bu baxımdan digər bankların əmlakının satışının necə həyata keçirilməsindən xəbərsizəm. Əmanətlərin Sığortalanması Fondu digər bankların Kreditorlar Komitəsinin yaradılmasından yayınır. Halbuki məhkəmələrin qərarı var ki, bütün banklar üzrə Kreditorlar Komitəsi olmalıdır və onlar həm də bankların əmlakının satılması prosesinə nəzarət etsinlər. Səbəb isə qeyri-şəffaflıqdır. Bizdə şübhələr var ki, hərraclar heç də ədalətli keçirilmir. Ən başlıca pozuntu isə odur ki, həmin hərraclarda marağı daha çox olan tərəflər, yəni kreditorlar iştirak etmirlər, Fond bunu təmin etmir. "Bank Standard"ın əmlakının satılması üzrə isə bir neçə hərrac keçirilib və bizim hələlik elə bir iradımız yoxdur".

Hərraclar hesabına toplanan vəsaitdən bankın əmanətçilərinə və digər kreditorlarına nə qədər vəsaitin çatacağına gəlincə, ekspert bildirdi ki, böyük ehtimalla heç bir vəsait çatmayacaq: "Ən azından müflis olmuş iri banklara, "Bank Standard" və "Texnika bank"da belə olacaq. Çünki bu banklarda zərər çox böyükdür. Burada əsas problem isə bizim qanunvericilikdədir. Qanun onu deyir ki, ilk növbədə toplanılan pulları Əmanətlərin Sığortalanması Fondu götürəcək və müflis bankın sığortalanmış əmanətlərinin kompensasiyası üzrə xərclədiyi vəsaiti geri qaytarmış olacaq. Bu isə faktiki olaraq Konstitusiyaya ziddir, mülkiyyət formalarının bərabərliyi prinsipini tapdalayır. Belə çıxır ki, Fondun pulu kreditorların pulundan daha dəyərlidir, Fond gərək birinci götürsün. Məsələn, Fondun məlumatına görə, "Bank Standard"ın bütün daşınar və daşınmaz əmlakının dəyəri 40 milyon manatdır, verdiyi kreditlərdən də təxminən 210 milyon manatı qayıdacaq. Yəni cəmi 250 milyon manat pulu olacaq. Ancaq bu bankla bağlı təkcə Əmanətlərin Sığortalanması Fondunun tələbi 440 milyon manatdır. Bu isə o deməkdir ki, həmin puldan əmanətçilərə heç nə çatmayacaq. Belə çıxır ki, bu gün Azərbaycanda faktiki olaraq əmanətlərin sığortalanması sistemi yoxdur, sadəcə, adı var. Sadəcə, digər kreditorların hesabına sığortalanmış əmanətləri kompensasiya edirlər. Bu baxımdan ən böyük problemi olanlar "Bank Standard" və "Texnika bank"dır. Burada artıq aydındır ki, toplanan puldan kreditorlara heç nə verməyəcəklər".

Ə.Həsənov bu məsələdə Fonda deyil, vətəndaşlara birinciliyin tanınmasının hüquqi baxımdan daha doğru olduğunu qeyd etdi: "Mən bu məsələ ilə bağlı qanun layihəsi hazırlamışam və dövlət başçısına göndərmişik ki, qanuna dəyişiklik edilsin. Əmanətlərin Sığortalanması Fondu vəsaitlərin ödənilməsi ilə bağlı növbəlilikdə birinci yerdən çıxarılmalıdır və kreditorlar da onunla bərabər olunmalıdır. Əgər kiməsə güzəşt edilməlidirsə, birinci olmalıdırsa, bu, adi vətəndaşlar olmalıdır, Fond olmalı deyil. Digər banklarda da oxşar problemlər çoxdur. Harada ki, ictimai nəzarət yoxdur, orada problemin olması qaçılmazdır. Müflis banka nəzarət hüququ ilk növbədə həmin bankda pulu qalmış əmanətçilərdə və digər kreditorlarda olmalıdır. Əgər bu şəxslər prosesə nəzarət etmirlərsə, Əmanətlərin Sığortalanması Fondu min cür oyundan çıxa bilər. Bu yaxınlarda Əmanətlərin Sığortalanması Fondu Bakı Apelyasiya Məhkəməsinə "Bank Standard"ın yeni ləğv planını verib. Orada xüsusi qeyd edilib ki, Kreditorlar Komitəsi bizim işimizə nəzarət etməli deyil, onlar yalnız məşvərətçi olmalıdır. Bunlar absurddur. Halbuki komitə təsis olunanda yazılmışdı ki, məqsədi nəzarət etməkdir. Fond, sadəcə, qeyri-şəffafdır və şəffaflıqdan yayınır. Halbuki bütün dünyada kreditorların ümumi yığıncağı keçirilir və Kreditorlar Komitəsi ilk növbədə ləğvedici üzərində nəzarətçi qurumdur. Çünki bu insanların həmin bankda pulları batıb. Ləğvedicinin funksiyası həmin pulların kreditorlara qaytarılmasıdır. Bizdə isə ləğvedici Əmanətlərin Sığortalanması Fondudur. Əgər Kreditorlar Fondun işinə nəzarət etmirsə, onda hansı şəffaflıqdan söhbət gedə bilər. Təəssüf ki, Fond bu nəzarətə imkan vermir".

❑ **Nərgiz LİFTİYEVA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 78 (6967) 12 aprel 2018

**Suriyada hökumətin kimyəvi silahdan istifadə etməsi iddiaları ilə başlayan gərginlik davam edir. Rəsmi məlumatlara əsasən, şənbə günü Duma qəsəbəsində kimyəvi qazlardan zəhərlənmə nəticəsində 48 nəfər ölüb, 100 nəfərə yaxın insan qazdan zəhərlənib. Qərb ölkələri, o cümlədən Türkiyə, ABŞ, Fransa, ərəb ölkələri kimyəvi silahın Suriya hökumətinin istifadə etdiyini iddia edir. Dəməşq isə iddiaları təkzib edir. Ötən gün BMT-nin Suriya üzrə özəl təmsilçisi Stefan de Mistura bildirib ki, kimyəvi silahdan istifadə faktı təsdiqlənsə də, silahı Suriya hakimiyyət qüvvələrinin işlətməsi ilə bağlı sübut əldə edilməyib.**

# ABŞ və Rusiya Suriyada toqquşa bilər

## Tramp Rusiyanı "ağıllı" raketlərlə hədələdi, ancaq son qərarı generallar verəcək



Aprelin 10-da prezident Donald Tramp Latın Amerikası ölkələrinə səfərini təxirə salıb. Vaşinqtonda Ağ evdə generalları qəbul edən Tramp Bəşər Əsədin cəzalandırılacağını bildirib. Eyni zamanda beynəlxalq mediada ABŞ hərbi dəniz qüvvələrinin Aralıq dənizinin Suriya sahillərinə doğru hərəkət etməsi haqda xəbərlər yayılıb. ABŞ mətbuatı isə yazıb ki, Trampa Suriyaya qarşı güc tətbiq edilməsi üzrə bir neçə variant təqdim edilib. Bu variantlar bir gündən artıq müddətdə bir çox hədəflərə, daha dəqiqi 22 mümkün hərbi hədəfə raket zərbələri endirilməsini nəzərdə tutur.

Ekspertlər isə ABŞ-ın bu dəfə daha ağır və ötən ilkindən daha geniş miqyaslı zərbələr endirməli olacağını yazır. Tramp özü isə aprelin 10-da bəyan edib ki, Suriyaya zərbə endirməklə bağlı qərar vermək üçün 24-48 saat arası vaxt var.

Ancaq eyni zamanda Suriya hökumətini müdafiə edən və hazırda Suriyada ciddi sayda hərbi qüvvə və texnika saxlayan Rusiyanın ABŞ zərbələrinə cavab reaksiyası gündəmə gəlib. Doğrudur, ötən ilin mayında amerikalılar Aralıq dənizindən Suriyanın Şayrat hərbi hava bazasını Tomahavk raketləri ilə atəşə tutanda ruslar hər hansı reaksiya verməmişdi. Ancaq indi durum bir az fərqlidir. Aprelin 1-də isə Aralıq dənizində ABŞ gəmiləri ətrafında dövrə vuran Rusiya təyyarələrinin görüntüləri yayıldı. Eyni zamanda qanadlarında gəmiləri hədəfə alan raketlər yerləşdirilmiş SU-34 qırıcılarının fotoları yayıldı. Ruslar ABŞ-a "bu dəfə müqavimət göstərəcəyik" mesajı verdilər.

**Rusiyanın Livandakı səfiri Aleksandr Zaspıkin** aprelin 11-də bildirib ki, ABŞ-ın Suriyaya atacağı istənilən raket Rusiya qüvvələri tərəfindən vurulacaq. Sitat: "Rusiya ABŞ-ın Suriyaya istiqamətlənmiş istənilən hücumunun qarşısını alacaq, dövlət başçısı Putinin dediklərini yerinə yetirəcək, Amerika raketlərini vurub, atəş açılan yerlərə cavab zərbəsi endirəcək".

Rusların bu mesajlarına cavab isə birbaşa ABŞ prezidentinin özündən gəlib. ABŞ prezidenti Donald Tramp öz Twitter səhifəsində Rusiyanı hədələyib. Sitat: "Rusiya Suriyaya atılacaq hər raketi, bütün raketləri vurmağa söz verib. Hazır ol Rusiya, çünki raketlər gələcək və bu raketlər "ağıllı" olacaq".

**"Sputnik"in xəbərinə görə, Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova** Trampın bəyanatına reaksiya olaraq bildirib ki, "ağıllı" raketlər hökumətə deyil, terrorçulara qarşı yönəlməlidir. Bu hücumun arxasında iddia edilən kimyəvi hücumun sübutlarını məhv etmək istəyi dura bilər".

Bundan sonra isə Tramp ikinci "twitter" yazıb və bu dəfə xeyli yumşalıb. Hətta bu dəfə əməkdaşlıqdan danışıb. Rusiyanı Suriyanı müdafiə etməməyə çağırıb.

Britaniya mətbuatı isə yazıb ki, Rusiyada parlamentdəki "şahin" qanad Putinə Suriyanı vuracağı halda Amerikaya cavab zərbəsi endirməyi təklif edib. Eyni zamanda ABŞ-da respublikaçıların da Trampa Suriyanı vurması üçün təzyiq etdiyi iddia edilir. Cənubi Karolinadan olan respublikaçı senator Lindsey Qraham bildirib ki, Suriyaya hərbi müdaxilə etməməsi Trampın "prezidentlik dönəminin ən böyük səhvi olacağını" dediyi bildirilir.

Belə görünür ki, Trampın üzərində Suriyaya zərbə endirməklə bağlı ciddi siyasi təzyiq var. Amerikanın "şahin" siyasətçiləri Rusiyanın Suriyada Bəşər Əsədi xilas etməsi və bir mənada öz mövqelərini qoruyub saxlamasını həzm edə bilmir. Bəşər Əsədə sadiq qüvvələrin vurulması Suriyada savaşı bir qədər də uzada, hətta savaşın taleyinə də təsir edə bilər. Çünki əks halda bu ilin sonuna qədər Suriyada müharibənin tamamilə başa çatması və böyük sülhün əldə olunması mümkündür. Ancaq bu qələbə həm də Rusiya və İranın qələbəsi olacaq. Bu səbəbdən də Vaşinqtonda oturan "şahinlər" savaşın gedişatını dəyişəcək addımları atması üçün Trampa təzyiq edirlər. Maraqlıdır ki, bu günlərdə Trampa başqa istiqamətdən təzyiqlər başlayıb. Vəkilinin ofisində axtarışlar aparılıb. Ancaq hərbi müdaxilə və onun hansı səviyyədə və formada olmasına ilk növbədə hərbçilər qərar verəcək. Bunun üçünsə Vaşinqtondakı generallarla yanaşı "sahədə" olan generalların fikirləri nəzərə alınmalıdır. Çünki genişmiqyaslı müdaxilə həm də daha böyük münaqişə riski yaradır. Burada mümkün cavab zərbələri, olası toqquşmalar da nəzərə alınır. Bu səbəbdən də Tramp 48 saat vaxt təyin edib, bu müddətdə qərarını verməlidir. Böyük ehtimalla sahədə hərbi dairələr arasında məsləhətləşmələr davam edir. Əgər rusların cavab vermək qərarı qəti olsa, o zaman ehtimal ki, amerikalılar bu toqquşmadan çəkinəcək. Çünki Aralıq dənizi sahillərində başlayacaq müharibə tezliklə regiona, hətta dünyaya yayıla və misli-bərabəri olmayan fəlakətə çevrilə bilər. Ancaq rusların mövqeyi qəti olmasa, o zaman ehtimal ki, amerikalılar Suriya ordusunun bazalarını vuracaq. Bir mənada hər şey razılaşmadan asılı olacaq.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# İnsanda komplekslər təhlükəlidirmi?

## Psixoloq: "Bəzən komplekslər uğurlara da yol aça bilir…"

**Cəmiyyətdə kompleksli insanlarla tez-tez rastlaşırıq. Belələri bəzən özlərini başqaları ilə müqayisə edir, daha sonra özlərində komplekslər yaradırlar. Komplekslər də insanların yaşına, təhsil səviyyəsinə, yaşayış durumuna, cinsiyyətinə görə dəyişir.**



Azad İsazadə

Məşhur psixiatrlar, o cümlədən psixoanaliz elminin banisi **Ziqmund Freyd** qeyd edir ki, bu hiss əsasən uşaqlıq dövründən qazanılan patoloji vərdişdir. Valideynlərin öz övladlarını tez-tez digər uğurlu həmyaşıdları ilə müqayisə etməsi, uğurlarını görə dəyərləndirə bilməməsi, sonradan uşaqlarda özünə inamsızlıq, gücsüzlük, psixoloji narahatlıq yaradır. Bu komplekslər yad situasiya ilə qarşılaşdığında özünü daha çox büruzə verir. Eyni zamanda ailədə həddən artıq sevgi görən uşaqlarda isə üstünlük kompleksi yaranır. Bu cür insanlar özlərini cəmiyyətdən şüurlu şəkildə təcrid edir, tək olmağa meyilli olur, insanlarla çox da ünsiyyətə girmirlər. Çünki həmin insanları özlərinə uyğun bilmirlər. Digərlərindən üstün olduğunu həddindən artıq düşünmə hissi getdikcə eqoistliyə çevrilir, tənhalığa gətirib çıxarır və bəzən də insanların depressiyaya düşməsinə səbəb olur.

**Bəs komplekslər nə dərəcədə təhlükəli və ya lazımlıdır?**

Araşdırma zamanı məlum olur ki, ilk dəfə kompleks sözünə Freydin və K.Q.Yunqun kitablarında rast gəlinib. Belə ki, Ziqmund Freyd kompleksliyi "şüursuzluq"la əlaqələndirdi. Freydə görə, şüursuzluq instinktlər, affektlər, emosiyalar, ehtiraslardan və onların birləşməsi nəticəsində yaranan emosional qruplar - komplekslərdən ibarətdir. Komplekslər insanın şüuraltında yaranır, sonra isə daha da inkişaf edir. Bunun nəticəsində insanlar çox zaman komplekslərini dərk edə bilmir.

Yunq isə komplekslərin varlığını "Sərbəst assosiasiyalar" metodunu tətbiq edərkən aşkarlamışdı. Bu metodda tətbiq edən, yəni psixoloq tətbiq olunana, yəni pasientə davamlı sözlər deyir, pasient isə bu sözlərin qarşılığında beyninə ilk gələn sözü deməlidir. Yunq bu metodu tətbiq edərkən belə bir situasiya ilə rastlaşır ki, bəzən pasientlər "qarşılıq" sözü deməkdə gecikirlər. Bu haqda özlərindən soruşduqda isə bu gecikmənin səbəbini açıqlaya bilmirlər. Ona görə də Yunq qərara gəlir ki, insanın beynində şüurdan kənar, bir-biri ilə əlaqəli duyğular, düşüncələr qrupu var. Yunq həmin qruplara kompleks adı verir.

Bununla belə psixiatrlar onu da qeyd edirlər ki, komplekslər heç də hər zaman mənfi nəticələrə gətirib çıxarmır. Məsələn, Yunq bildirirdi ki, bəzən komplekslər insanın böyük uğurlara çatmasını təmin edə bilir. Amerikalı psixoanalitik Alfred Adler də qeyd edirdi ki, birmənalı şəkildə natamamlıq kompleksi pisdir demək olmaz. Çünki komplekslər normal və təbii insani hissdir. O, hətta öz fikrini belə bir aforizmlə əsaslandırdı - "Hərtərəfli insan olmaq üçün natamamlıq kompleksi olmalıdır".

**Mövzu ilə bağlı psixoloq Azad İsazadə** "Yeni Müsavat"a danışdı: "Sözsüz ki, hərəmizin müxtəlif kompleksləri var. Söhbət ondan gedir ki, bu komplekslər bizim həyat tərzimizə necə təsir edir. Əgər mənfi təsir edirsə, onu mənfi kompleks adlandırırıq. Amma bəzən komplekslər uğurlara da yol aça bilir. Ona görə də komplekslərin olması normaldır və bəzən heç ona fikir də vermirik. Yəni insan öz komplekslərini yaxşı tanıyırsa, həyatda uğur qazanır, yaxşı peşə seçir və sairə. Əgər komplekslərimiz bizi idarə edirsə, o zaman biz ondan asılı oluruq və həmin kompleks mənfi kompleks adlanır. Sözsüz ki, natamamlıq kompleksinin mənfi cəhətləri çoxdur. Adətən elə kompleks dedikdə natamamlıq kompleksini nəzərdə tuturuq. Bu zaman insanlar peşəkarlara müraciət edərək bu kompleksdən azad ola bilirlər".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

**Xarici filmlər və seriallar insanlarda elə təəssürat yaradır ki, xristian cəmiyyətlərində boşanma və xəyanət çox adi hallardan biridir. Bəzən ciddi ekspertlər, sosioloqlar Azərbaycandakı ailə institutunda baş alıb gedən xoşagəlməzlikləri, boşanma faizinin ildən-ilə artmasını "qərbdən gələn dalğa" kimi izah edirlər. Halbuki...**



# Səmavi dinlərdə boşanma və zina

## Və ya kim deyir ki, bizi xaricilər korlayır?..

"Yeni Müsavat" qeyri-dinlərdə boşanma və xəyanət kimi hallarla bağlı ilginc dosye hazırlayıb. Öncə boşanma ilə bağlı məqama diqqət edək:

### Xristianlıq

Yəhudilik və islamiyyətdə olduğu kimi, xristianlıq boşanmağı ərin öz ixtiyarına buraxmır. Xristianlıqda boşanmaq yasaqdır. Kilsə təmsilçiləri arasındakı hakim olan fikir belədir ki, ortada zina olsa belə, boşanmaq haram sayılır. Əgər qadın günaha yol veribsə, bu halda belə o, günahına tövbə edibsə, ər ona qayıtmalıdır. Fərd öz həyat yoldaşını sırf öz iradəsi və tərcihi ilə ayırıb boşaya bilməz. Ancaq xristianlıqda ər-arvaddan birinin tələbi üzərinə hakimin hökmü ilə boşanma baş tuta bilər.

### Katolik məzhəbində boşanma

Katoliklərə görə, hansı səbəblə olursa-olsun, boşanmaq caiz deyil. Bunların dəlilləri aşağıdakılardır:

a) Arvadını boşayıb başqa bir qadınla evlənən zina edib. Bir kişidən boşanan qadınla evlənən də zina edib.

b) Evlilik, kilsənin müqəddəs sirlərindən biridir. Onun çözülməsi caiz deyil. Evlilikdən sonra, hansı səbəblə olursa-olsun, ayrılmaq caiz olmaz. Polis Rasül, kişilərə belə müraciət edir: "Ey kişilər! İsanın kilsəni sevdiyi və onu müqəddəsləşdirmək üçün özünü təslim etdiyi kimi, siz də arvadlarınızı sevin". Buna görə də xristianlar ərin arvadı ilə olan münasibətini İsanın kilsə ilə olan münasibəti kimi görür və ayrılığı qəbul etmirlər. Bunu ilahi təbiət qanunlarına da istinad edərək, Tövratdakı bu məqamı səsləndirirlər: Allah Adəmdən sonra, onun təkbaşına olmasını yaxşı qarşılamadığı üçün Həvvanı yaratdı. Allah Həvvanı yaratdıqdan sonra Adəmin dilinə bu sözü qoydu: "Bu ayət mənim sümüyümdən bir sümük, mənim ətimdən bir ətdir. Buna görə də kişi ana-atasını tərk edər, həyat yoldaşı ilə birləşir və bir tək cəsəd olurlar".

### Protestant məzhəbində boşanma

Protestantlar boşanmağı iki halda caiz görürlər: zina və din dəyişdirməsi zamanı. Ər-arvaddan biri zina etsə və ya din dəyişdirsə, digəri hakim qarşısında boşanma tələbi ilə çıxış edə bilər.

a) zina səbəbi ilə boşanma: bu boşanma səbəbindəki dəlillər Matta incilində yer alır. Həzrəti İsa insanlara verdiyi öyüddə belə deyib: "Kim zinadan başqa bir səbəblə arvadını boşayarsa, arvadını zaniyə etmiş olur. Üstəlik, boşanmış bir qadınla evlənsə, zina etmiş olur".

Protestan alimlərinin çoxu hesab edir ki, ər öz arvadlını uzun müddət tərk edərsə, cütlük arasında ayrılma caiz ola bilər. Onların arqumenti belədir: "Fəqət, evli olanlara mən yox, ancaq Rəbb əmr edir. Qadın ərindən ayrılmasın. Amma əgər ayrılsa da, ərsiz qalmasın, yaxud əriylə barışsın və ər arvadını atmasın".

b) din dəyişdirmə səbəbi ilə boşanma: bu növ boşanma bu əsasla baş verir. Xristianlıq dinini dəyişdirən hökmən ölü qəbul edilir. Həqiqətən ölənin nikahı ləğv olunduğu kimi, hökmü ölümü də həqiqi ölümlə müqayisə edərək belə deyərlər: ər-arvaddan kim dinini dəyişdirsə, xristianlıq dinində qalan boşanmağı istəmək haqqına sahib olur.

### 3- Ortodoks məzhəbində boşanma

Ortodokslar boşanma məsələsində protestantların qəbul etdikləri səbəbləri qəbul ediblər. Ancaq indilərdə zikr edilməyən başqa səbəblər də əlavə ediblər. Bu səbəblər çoxalaraq təhlükəli bir həddə çatıb, evlilik bağını bərpası mümkün olmayan hala gətirərək, ər-arvadın hər birini zərərlərə məruz qoyub.

Ortodokslukda əsas olan Matta İncilində də qeyd olunduğu kimi, evlilik bağı zinanın xaricində çözülməsi caiz olmayan müqəddəs bir bağ sayılır. Ortodoks kilsəsində uzun bir zaman qanun bu minvalla davam edib. Amma bu məzhəbin alimləri digər məzhəblərdən fərqli olaraq pis yolda olmaq, ayıblı olmaq, dəlilik, xəstəliklər kimi durumda boşanmağı mümkün sayırlar. Kitabların çoxu bu dəyişimin meydana gəlməsində Roma hüququnun Ortodoks kilsəsi üzərindəki nüfuzunu göstərir.



Roma katolik kilsəsinə evliliklərin ləğvi üçün müraciət edən katoliklər ilginç səbəblər önə sürür. Kilsənin ən qarmaşıq evlilik ləğvi istəklərini qərara bağlayan üst məhkəməsi "Sacra Romana Rota"ya müraciət edən kişilərdən biri, arvadının siqareti atmadığını, "evliliklərinin dumana boğulduğunu" səbəb kimi göstərərək, evliliyinin ləğvini istədi.

Boşanmaq istəyən qadınların ən öndə gələn səbəbi isə ərlərinin "anasının quzusu" olmasıdır. Katolik qadınlar 30, 40 yaşlarında, hətta daha yaşlı olan ərlərinin hələ də analarıyla psixoloji bağlarını qoparmamasından şikayət edirlər.

Evliliyin ləğvi qərarı, evliliyin ilk gündən bəri keçərsiz olması, əsla baş tutmaması mənasına gəlir. Məhkəmənin ənənəvi ləğv səbəbləri arasında evlilik zamanı tərəflərdən birinin, ya da hər ikisinin psixoloji yetkinlik səviyyəsinə çatmamış olması, tərəflərdən birinin evlilikdən öncə gizlənən bir neqativliyin ortaya çıxması, anlaşılmazlıq, cinsi həyatın olmaması və zorla evlilik yer alır.

Həyat yoldaşı siqaret çəkdiyi üçün evliliyin ləğvini istəyən ər, arvadı ilə siqareti atacağı sözü verməsindən sonra evləndiyini, həyat yoldaşının evlilikdən sonra bütün cəhdlərinə baxmayaraq, siqareti ata bilmədiyini deyir.

Boşanma işinə baxan kilsə evlilik heyəti, ərə evliliyin ləğvi haqqı verdi. Amma ikinci instansiya məhkəmə heyəti bu qərarı ləğv etdi. Dolayısı ilə iş daha yüksək məhkəməyə getdi. Başqa bir ilginc məhkəmə işində isə arvadının evlilikdən sonra özünə baxmaqdan əl çəkdiyini deyən ər, "sonradan başqa biri olduğu ortaya çıxan biriylə evlənərək oyuna gətirildiyini" iddia edir.

Katolik İtaliyada qanunlar 35 ildir boşanma haqqı verməklə yanaşı, bir çox insan təkrar kilsədə evlənmə haqqı əldə etmək üçün evliliklərinin kilsə tərəfindən ləğvini tərcih edir.

Vatikan 1992-ci ildə Monakko şahzadəsi Karolinə evlilik ləğvi haqqı tanımışdı.

### Xəyanət edən qadının saçı çox qısa kəsilir, sol qulağı qoparılırdı

İndi keçək xəyanət və onun cəzası məsələsinə. Ən ibtidaisindən ən inkişaf etmişinə qədər, bütün dinlərdə zina anlayışının izahı bir-birinə oxşar... bənzər ünsürlərdən meydana gəlir. Cəmiyyət tərəfindən təsdiqlənmiş və ya rəsmi olaraq qəbul edilmiş bərabərliklər xaricində gizlicə yaşananlar və ya təcavüz növündən təşəbbüslər daim suç və günah sayılıb.

İbtidai cəmiyyətlərdə çox rast gəlinməsə də, tabuların çeynənməsinə səbəb olan qeyri-rəsmi münasibətlər cəzalandırılıb. Bu cəzalandırma həm cəmiyyətin hüquqi normaları çərçivəsində, həm də dini inanclar çərçivəsində icra edilməkdə idi. Hüquqi olaraq zina edənlər öldürülür, cəmiyyət xaricinə sürülür və ya bədənlərində iz qoyan bir əmələ məruz qoyulurdu.

Cənubi Amerika qızıl dərililərindən Vydot qəbiləsində zina işlədən qadının saçı çox qısa kəsilir və ya sol qulağı qoparılırdı. Afrikada Buşmen zəncilərində zina edən kişi və qadının görünən yerləri dağlanırdı.

Zina ilə bağlı çatımlı olan ilk sənədlər Mesopatomiyadakı daşa yazılmış sənədlərdə rast gəlinirdi. Şumerlərə aid Ur Nammu və Eşnunna, Babilllilərə aid Hammurabi qanunnamələrində zina haqqında müxtəlif hökmlər var.

Zina suçu ilə məhkum olan tərəflərin hər ikisi evlidirsə, onlara veriləcək cəza ölümdür. Tərəflər ya boğulur, ya da yüksək bir yerdən atılırdı. Əgər kişi qadının evli olduğunu bilmədiyini iddia edər və isbat edə bilərsə, daha kiçik bir cəza ilə qurtula bilərdi. Təcavüz də zina çərçivəsində qəbul edilməkdə idi. Evli olmayanların bərabər olması isə daha xəfif cəzalarla qarşılanırdı.

Roma hüququnda "adulterium" adlanan zina erkən dönəmlərdə bəzi haqlardan məhrum buraxılmaqla cəzalandırılırdı. Konstantinin xristianlığı qəbulu ilə zina suçunun qarşılığı ölüm olaraq təsbit edildi.

Xristianlıqda zina hər nə qədər qavram və hökm olaraq yəhudi şəriətindən alınıb davam etdirilsə də, Həzrəti İsa tərəfindən bu anlayışın sərhədləri bir az daha da genişləndirilib.

- İnsanın qarşı cinsə şəhvətlə baxışı belə qəlbən zina çərçivəsində düşünülüb (Matta, 5/27-28),

- Boşandıqdan sonra evlənmə hər iki tərəf üçün zina sayılıb (Matta, 19/9; Markos, 10/11-12; Luka, 16/18),

- Zina və sair kimi cinsi cinayətlər toplu halda pislənib (Matta, 15/19; Markos, 7/21; Galatyalılara Mektub, 5/21).

İncildə zinaya bir cəza müəyyənləşdirilməməklə yanaşı;

- Zina edənlərin ittiham olunacağı (İbranilərə Məktub, 13/4),

- Onlar kimilərin Tanrının hakimiyyəti altında yer tapmaqdan məhrum qalacaqları (I. Korintoslulara Məktub, 6/9-10) qeyd edilib.

Müqəddəs mətnlərdən də anlaşıldığı kimi, Hz. İsa zina edərkən yaxalanmış bir qadına rəcm cəzası tətbiq etməyib (Yuhanna, 8/3-11), amma zinanın boşama üçün yeganə səbəb olduğunu vurğulayıb (Matta, 19/9; Markos, 10/11-12; Luka, 16/18).

Ayrıca Pavlus tərəfindən əxlaqsızlıq edənlərin cəmiyyətdən xaric olmaları təklif olunub (I. Korintoslulara Məktub, 5/1-2, 9-13).

Daha sonrakı dönəmlərdə də kilsələr mövzu ilə bağlı, müddəti dəyişmək üzrə kəfarət, keçici və ya daimi olaraq cəmiyyətdən xaricetmə kimi cəzalar tətbiq edib.

❑ SEVİNC

YENİ MÜSAVAT
Son səhifə
N 78 (6967) 12 aprel 2018

## Qızını uşaq evinə göndərmək istədi, kuryer xidmətinə müraciət etdi

Çin sakini olan bir qadın yeni doğulan qızını uşaq evinə göndərmək üçün kuryer xidmətindən istifadə edib. Bu barədə yerli nəşr olan "South China Morning Post" xəbər yayıb. Nəşrin yazdığına görə, qadın poçt idarəsinə plastik torba ilə gəlib. Daha sonra paketin qımıldandığını görən poçt işçiləri ordan uşaq səsi gəldiyini eşidiblər. Kuryer çantanın içindəkinə baxmaq, onun çəkisini yoxlamaq istəsə də, qadın buna imkan verməyib. Bundan sonra poçt işçisi polis çağırıb. Körpə yerli xəstəxanaya göndərilib. Həkimlər müəyyən ediblər ki, körpə bir neçə gün öncə dünyaya gəlib və onun durumu stabildir. Uşağın anası polis tərəfindən saxlanılıb. Onu uşağını atmaqda ittiham edirlər. Qadını 5 ilə qədər türmə həyatı gözləyir.

10 avqustda isə Sverdlovsk vilayətində iki körpənin meyidi tapılıb. Ekspertiza müəyyən edib ki, uşaqlar ölü doğulublar, onların bədənində hər hansı xəsarət yoxdur. 6 avqustda isə Yekaterenburq küçələrindən birində yoldan keçənlər içində yeni doğulmuş uşaq olan torba tapıblar. Körpəni dərhal klinik xəstəxanaya çatdırıblar.

## 40 şagird içki içdi və məktəbdən uzaqlaşdırıldı



İngiltərə qraflığı Kentdəki "Sevenoaks School"da 40 şagirdi spirtli içkidən istifadə etdiyi üçün məktəbdən uzaqlaşdırıb. Bu barədə "The Daily Mirror" xəbər verib. Xəbər verilir ki, uşaqları ekskursiya zamanı spirtli içkidən istifadə edərkən tutublar. Təhsil müəssisəsi təmsilçisi bildirib ki, uşaqlar məktəbin davranış kodeksini pozduğu üçün qovulublar. Ekskursiya ildə orta hesabla 60 dəfə təşkil olunur və orada 350-yə yaxın adam iştirak edir. Sevenoaks məktəbi ölkənin ən prestijli məktəblərindən sayılır. Bu təhsil ocağı 1432-ci ildə yaradılıb və burada 1000-ə yaxın adam təhsil alır. Şagirdlərin çoxu məktəbin yaxınlığındakı pansionda təhsil alır. Buranın illik təhsil haqqı 50 min dollardır.

## Narkotiki və içkini atan keçi yeni həyata başladı

Amerikada narkotik və alkoqoldan istifadəyə məcbur edilən keçini heyvanların terapiyası kurslarına göndəriblər. Bu haqda WPXI portalı məlumat yayıb. İlk dəfə bu keçi haqqında 2018-ci ilin fevral ayında məlumat yayıldı. Corciya ştatından olan keçiyə narkotik verən isə Sergio Qusman idi. O, heyvanlara kokain və viski verir, sonra da onların davranışlarını videoya çəkib, sosial şəbəkələrdə yayırdı. Heyvan müdafiəçisi Kayl Cons heyvanı öz sığınacağına aparıb və ona Viski ləqəbi verib. Qadının sözlərinə görə, keçi o qədər arıq olub ki, onun sümüklərini saymaq mümkün olub. Bundan başqa, əvvəlcə keçi insanlardan uzaq dayanırmış. Könüllülər onu yedirmək üçün xeyli əziyyət çəkiblər. Amma zaman keçdikcə o da insanlara və onların verdikləri qidalara öyrəşib. Bundan başqa, insanlarla ünsiyyəti sevir və sığınacağın işçiləri başqa heyvanlara qayğı göstərəndə qısqanır.

Cons Viskini kurslara göndərmək istəyir. Onun dediyinə görə, keçi təlim görəndən sonra ondan uşaqların müalicəsində zooterapevtik məqsədlər üçün istifadə etmək olar: "Bu, dünyanın ən gözəl keçisidir və mütləq bu işin öhdəsindən gələcək".



## Amerikalının evində naməlum şəxs təmizlik aparıb



Amerikanın Vaşinqton şəhərində naməlum şəxs səfərdə olan bir amerikalının evinə girərək, oraları səliqəyə salıb. Bu barədə Associated Press xəbər yayıb. Səfərdən geri qayıdan amerikan evinə kiminsə əl gəzdirdiyinin fərqinə varıb. Bəzi əşyalar onun qoyduğu yerdə deyildi. Mənzil sahibi deyir ki, onun xadiməsi heç vaxt olmayıb. Polisdə isə ehtimal edirlər ki, mənzilə kimsə qeyri-qanuni şəkildə girib. Şübhəli şəxsin foto robotu isə hələ hazırlanmayıb. Ötən ilin 1 avqustunda isə Avstraliyada bir oğru qarət üçün getdiyi bir evdə elit şampandan içəndən sonra orada yuxuya getmişdi. Polisin onu yaxalaması isə heç də çətin olmamışdı.

## Qoroskop




**QOÇ** - Yeni əlaqələr yaratmaq üçün ideal ərəfədir. Çox güman ki, bir neçə yeniliyin şahidi olacaqsınız. Sevindirici təkliflər də labüddür. Axşam qonaqlığa getmək sizə rahatlıq gətirəcək.

**BUĞA** - Saat 14-ə qədər ev şəraitində olmağınız vacibdir. Riskli iş görmək, səfərə çıxmaq yolverilməzdir. Əks təqdirdə əsəbi məqamlar yaşayacaqsınız. Axşamsa qonaqlıq gözlənilir.

**ƏKİZLƏR** - İxtiyarınızda olan bu təqvim sizin üçün həddindən ziyadə uğurlu keçəcək. Ürəyinizcə olan şəxslərlə rastlaşmağınız, eləcə də təzə xəbərlər eşitməyiniz sizi sevindirəcək. Riskdən qorxmayın.

**XƏRÇƏNG** - Ulduzların düzümü səhhətinizlə bağlı bəzi problemlərlə rastlaşa biləcəyinizdən xəbər verir. Bu səbəbdən də orqanizminizə zidd olan qida və işlərdən yayınmalısınız.

**ŞİR** - O qədər də uğurlu gün deyil. Bir tərəfdən ətrafınızda lazımi adamların olmaması, digər tərəfdənsə əsəbi situasiyalar ovqatınızı korlaya bilər. Özünüzü təmkinli aparmağa çalışın.

**QIZ** - Astroloji göstəricilər günün diqtəsinə uyğun olaraq uzaq səfərə çıxmağınızı məsləhət görür. Digər sahələrdə passivlik hökm sürdüyündən neytral qalmağınız daha məqsədəuyğundur.

**TƏRƏZİ** - Təxminən saat 15-ə qədər ümumi ovqatınız xoş olacaq, ünsiyyətdə olduqlarınız sizi anlayacaq. Sonrakı müddətdə isə ciddi və böyük mübahisələrə cəlb olunacağınız gözlənilir.

**ƏQRƏB** - İxtiyarınızda olan bu təqvimdə üzərinizə böyük öhdəliklər düşür. Nəticənin uğurlu olacağını nəzərə alıb yorulmaqdan çəkinməyin. Kənar müdaxilələrə reaksiya verməyin.

**OXATAN** - Bütün enerjinizi fəaliyyət prinsipinə istiqamətləndirin. Çünki perspektivləriniz bu ərəfədən birbaşa asılı olacaq. İşgüzar sövdələşmələrdə mümkün qədər ötkəm olun.

**OĞLAQ** - Göy qübbəsi yalnız ev-eşiklə, bağ-bağatla məşğul olmağınızı tövsiyə edir. Digər işləri isə təxirə salmağınız məsləhətdir. Yaşca sizdən kiçik olanlara mərhəmət və qayğınızı artırın.

**SUTÖKƏN** - Maraqlı görüşlər və səfərlər yolunuzu gözləyir. Bir qədər qətiyyətli olun. Bədxah adamlara qarşı rəhmli olmaq o qədər də səmərəli deyil. Ulduzlar ac qalmağınızdan şikayətçidir.

**BALIQLAR** - Əgər bizneslə məşğulsunuzsa, bu gün bəxtiniz gətirə bilər. Çünki bütün göstəricilər uğurlu iş birliyi yaradacağınızdan, həmçinin varlanacağınızdan xəbər verir. Səfərə çıxmayın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## İmtahanda uşağını əmizdirən qadın tələbə oldu



Əfqanıstanda bir qadın imtahan zamanı 2 aylıq körpəsini əmizdirmişdi. Müəllimi şəklini çəkib paylaşınca qadın bütün dünyada tanınmışdı. Gənc qadının bütün xərcləri bir qadın siyasətçi tərəfindən qarşılandı və o, universitetin maliyyə fakültəsinə qəbul edildi. Xatırladaq ki, Əfqanıstanda Cihantab Əhmədi Kabildə universitet imtahanına girdi. Həmin vaxt iki aylıq körpəsi də yanında idi. İmtahan suallarına cavab yazdığı anda isə uşağını da əmizdirirdi. Əhmədi və körpəsinə Əfqanıstan prezidenti ikinci köməkçisi tərəfindən bir ev də kirayələndi. Bu, onun yüksək səviyyədə təhsil ala bilməsi üçün hökumətin yardımı kimi qəbul edildi.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Elşad MƏMMƏDLİ
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 5.100